Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 236 (7963) ŞƏNBƏ, 20 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymətı 40 qəpik





# İLHAM ƏLİYEV növbəti qlobal təşəbbüsə - Türkiyənin ən böyük enerji layihəsinə müəlliflik etdi

*Azərbaycanın 6,3 milyard dollarlıq sərmayəsi ilə ərsəyə gələn "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir*

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## İzmir şəhərinin Adnan Menderes adına hava limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün oktyabrın 19-da Türkiyə Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İzmir şəhərinin Adnan Menderes adına hava limanında dövlətimizin başçısını yüksək vəzifəli rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı Türkiyə əsgərlərini salamladı.

Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.

Prezidentlər terrasdan "Star" neft emalı zavodunun ərazisini seyr etdilər.

Dövlət başçıları idarəetmə ofisi ilə tanış oldular.

Prezidentlərə "Star" neft emalı zavodunda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq.

Ardı 2-ci səh.



## Azərbaycan 140 ölkə arasında 15-cidir

Azərbaycan "Qlobal Rəqabətlilik Hesabatı-2018"də infrastruktur, təhsil və bacarıqlar kimi indikatorlar üzrə mövqelərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

Hesabatda ölkəmiz 140 ölkə arasında "rəqəmsal bacarıqlar" alt-indikatoru üzrə 15-ci, "orta təhsil illəri" alt-indikatoru üzrə 50-ci, "kadr hazırlığının yaxşılaşdırılması" alt-indikatoru üzrə 56-cı, "məzunların bacarıqları" alt-indikatoru üzrə 32-ci, "ixtisaslı işçilərə asan əlçatanlılıq" alt-indikatoruna görə 31-ci, "ibtidai təhsildə şagird-müəllim nisbəti" alt-indikatoru üzrə 48-ci, "tədrisdə tənqidi düşüncə" alt-indikatoru üzrə isə 27-ci yerdə qərarlaşıb.

Hesabatın "bacarıqlar" indikatoruna bu il daxil edilən peşə təhsilinin keyfiyyəti alt-indikatoru üzrə Azərbaycan dünyanın 140 ölkəsi arasında 49-cu yeri tutub. Hesabatda peşə təhsilinin keyfiyyəti üzrə Rusiya 67-ci, Ermənistan 85-ci, Qazaxıstan 92-ci, Gürcüstan 131-ci, Türkiyə isə 132-ci yerdə qərarlaşıb. Bu, son illərdə təhsil sahəsində, xüsusilə peşə təhsili sahəsində aparılan uğurlu işlərin beynəlxalq ictimaiyyət tərəfindən təsdiqlənən statistik göstəricisidir.

## Beynəlxalq miqyasda etiraf edilən yüksəliş

Yeni Qlobal Rəqabətlilik Hesabatı Azərbaycandakı inkişaf prioritetlərinin sürətlə reallaşdığını göstərir

**Ardıcıl inkişaf dinamikasına malik Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı böyük uğurların kökündə dayanan əsas amillərdən biri iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən məqsədyönlü siyasətdir.**

Bunun nəticəsidir ki, ölkədə iqtisadiyyatın tərəqqisi məhdud sfera üzərində köklənməyərək çoxcəhətli, genişmiqyaslı xarakterə malikdir. Bu səpkidə görülən işlər respublikada iqtisadi yüksəlişə böyük töhfələr verərək, onu dinamik hala gətirib.



### Azərbaycandakı iqtisadi proseslər beynəlxalq təşkilatların diqqət mərkəzindədir

Təbii ki, Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlərin əsasında müasir çağırışlara cavab verən islahatların həyata keçirilməsi, Prezident İlham Əliyevin düşünülmüş, gələcəyə hesablanmış, xalqın və dövlətin milli maraqlarına xidmət edən məqsədyönlü və praqmatik siyasəti dayanır. Bu siyasətin nəticəsi olaraq Azərbaycan Respublikası bütün bəşəriyyəti əhatə edən iqtisadi kataklizmlərlə müşayiət olunan proseslərə, o cümlədən qloballaşmanın təsirindən irəli gələn müəyyən mənfi fəsadlara baxmayaraq iqtisadi, sosial və digər sahədə böyük nailiyyətlər əldə edib, regionun liderinə, beynəlxalq aləmdə mövqeyini, imicini, reytinqini ildən-ilə möhkəmləndirən dövlətə çevrilib.

Əldə edilən uğur və nailiyyətlərin miqyası isə mütəmadi şəkildə genişlənir və Azərbaycan daha qüdrətli dövlətə çevrilir. İqtisadiyyatın ən müxtəlif sahələrində inkişafın paralel şəkildə getməsi, bir-birini tamamlaması ölkə xaricində də diqqət çəkir. Belə ki, respublikamızın inkişaf prosesinin kompleks xarakter daşıması, ən müxtəlif sferaları özündə ehtiva etməsi, innovativ və novatorçu xarakter daşıması beynəlxalq miqyasda təqdir olunur.

Ardı 5-ci səh.

## Hər ailənin öz həkimi

Azərbaycanda ailə həkimi institutunun formalaşması üçün baza mövcud olsa da, bu sahədə hələ ki irəliləyiş yoxdur

**...Yorulmadan ailənin hər bir üzvünə illərlə xidmət edir və demək olar ki, orqanizmimizi bizdən yaxşı bilir, sağlığımızı daim düşünür. Dünyanın bir çox yerində ona bir ailənin müalicəsinə xidmət edən "tibbi dükan" kimi də baxılır. Bütün ailə üzvlərinin sağlığı ilə bağlı hər incə detaldan məlumatlı olur. O, ailə həkimidir...**




Ailə həkimi əslində illər öncə Azərbaycanda da aktual olan can həkimidir. Bu həkimlər ailədə yaş, xəstəlik fərqi olmadan insanın bütün xəstəlik və orqanlarını müalicə etməyi bacarırlar.

### Həkim o qədər yaxın olmalıdır ki, soyuducunu da açıb qidalara baxa bilsin

Uzun zamandır müzakirə mövzusu olan ailə həkimi məsələsi icbari tibbi sığortanın gündəmə gəlməsi ilə daha da aktuallaşdı. Artıq 2019-cu ildən Azərbaycan Tibb Universitetində (ATU) ailə həkimi ixtisası üzrə rezidenturaya qəbul keçiriləcək. Rezidenturanı bitirənlər ailə həkimi ixtisasına yiyələnəcəklər. Yəni artıq bizim də ailə həkimimiz olacaq.

Ardı 7-ci səh.

# İLHAM ƏLİYEV növbəti qlobal təşəbbüsə - Türkiyənin ən böyük enerji layihəsinə müəlliflik etdi

## Azərbaycanın 6,3 milyard dollarlıq sərmayəsi ilə ərsəyə gələn “Star” neft emalı zavodu Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir
















*Əvvəli 1-ci səh.*

Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. “Star” neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

“Star” neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod “Petkim” neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək.

Onu da deyək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, “Star” neft emalı zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir. Bu müəssisə Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Belə ki, o, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq.

Xatırladaq ki, “Star” neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

“Star” neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verdi.

Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olundu.

SOCAR-ın prezidenti **Rövnəq Abdullayev** mərasimdə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə təşəkkürünü bildirdi. Ulu öndər Heydər Əliyevin “Azərbaycan-Türkiyə dostluğu əbədi və sarsılmazdır” sözlərini xatırladan Rövnəq Abdullayev diqqətə çatdırdı ki, müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində SOCAR Türkiyənin ən böyük investoruna çevrilib.

“Star” neft emalı zavodu haqqında və burada istehsal ediləcək məhsullar barədə danışan SOCAR-ın prezidenti yaxın gələcəkdə “Petkim”də yeni əhəmiyyətli layihənin reallaşdırılmasına başlanılacağını qeyd edərək dedi:

- Bu gün açılışına toplaşdığımız layihələrin memarları olan və iştirakları ilə bizi şərəfləndirən prezidentlərimiz cənab İlham Əliyevə və cənab Rəcəb Tayyib Ərdoğana sonsuz minnətdarlığımı bildirirəm. Zati-alilərinin dəstəyi, himayəsi olmasaydı, bu layihəni daim diqqət mərkəzində saxlamasaydılar, dəyərli tövsiyələrlə bizə doğru yol göstərməsəydilər, bu uğur qazanılmazdı.

Türkiyənin energetika və təbii sərvətlər naziri **Fatih Dönməz** Türkiyə-Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan bu hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını vurğuladı. Azərbaycan və Türkiyə prezidentlərinin dəstəyi ilə ölkələrimizin enerji sahəsində əhəmiyyətinin daha da artdığını deyən energetika və təbii sərvətlər naziri “Star” neft emalı zavodunun verəcəyi faydanı qeyd etdi. Bu zavodun Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biri olduğunu deyən Fatih Dönməz həyata keçirilən layihələrin Azərbaycanın və Türkiyənin bölgədəki gücünü daha da artıracağını vurğulayaraq dedi:

- Böyük və güclü Türkiyə hədəfimizə gedən yolda Azərbaycanı yanımızda görmək bizi son dərəcə məmnun edir. Biz eyni köklər üzərində böyüyən ulu bir çinarın budaqlarıyıq. Həmin çinarın kölgəsi həyata keçirdiyimiz layihələrlə bu gün Qafqazdan Avropayadək bir çox ölkəyə qədər uzandı.

“Türkiyə və Azərbaycan birlikdə XXI əsrin enerji tarixini yazır”, - deyən Fatih Dönməz Azərbaycanın müstəqilliyinin 27-ci ildönümü münasibətilə təbriklərini də çatdırdı.

Türkiyənin xəzinə və maliyyə naziri **Berat Albayrak** TANAP layihəsinin açılışından 4 ay sonra dünyaya örnək olacaq daha bir önəmli layihənin açılışına toplaşdıqlarını qeyd edərək, Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandıraraq dedi:

- Bu gün burada yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasını təqdim edir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməlidir. Qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bu gün bu mənzərə dünyaya ölkələrin öz maraqlarını, iqtisadi sabitliklərini təmin etmələrinin yolunun himayəçilikdən və onu artırmaqdan, ticarət müharibələri aparmaqdan yox, həmrəylikdən, rəqabətlilik mühitindən, güclü əməkdaşlıqdan keçdiyini çox aydın şəkildə ortaya qoyur.

Türkiyə Böyük Millət Məclisinin sədri **Binəli Yıldırım** iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırdı, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayaraq dedi:

- Türkiyə-Azərbaycan münasibətlərini əbədiyyətə daşıyacaq bu və bu qəbildən ortaq layihələrimizlə qürur duyuruq. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, “Star” neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə Azərbaycan-Türkiyə qardaşlığını inkişaf etdirmir, eyni zamanda, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. Ölkələrimizin iqtisadiyyatına böyük fayda verəcək neft emalı zavodunun İzmirimizə, Türkiyəmizə xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının ən önəmli tərəfini, həmçinin qarşılıqlı yatırımların, dünya səviyyəli enerji və nəqliyyat sahələrində əməkdaşlığın təşkil etdiyini deyən Türkiyə Böyük Millət Məclisinin sədri ulu öndər Heydər Əliyevin, Türkiyənin və Azərbaycanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin imzaladığı sənədlərlə iki ölkə arasında münasibətlərin daha da möhkəmləndiyini vurğuladı.

Ölkələrimiz arasında 1991-ci ildən etibarən 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalandığını diqqətə çatdıran Binəli Yıldırım dedi:

-Mərhum Prezident Heydər Əliyevin, hörmətli Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə imzalanan bu müqavilələr əlaqələrimizi “Bir millət, iki dövlət” anlayışına bir addım da yaxınlaşdırıb. Bölgəmiz və dünya iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edən bu əsərlər məhz iki ölkənin bu anlayışının nəticəsidir.

Açılış mərasiminin dəyərli bir ildönümü ilə üst-üstə düşdüyünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə təsadüf etdiyini deyən Binəli Yıldırım bu münasibətlə bir daha təbriklərini çatdırdı.

Mərasimdə Azərbaycanın və Türkiyənin imza atdığı mühüm layihələr barədə videoçarx nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

# Prezident İlham Əliyevin çıxışı




- Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar.

Bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. Biz “Star Rafineri”nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada “Star”ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

Mən yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Deməliyəm ki, bu il bu səfər mənim Türkiyəyə üçüncü səfərimdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər etmişdir. Bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəfəri nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Onu da qeyd etməliyəm ki, dünən biz Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd etdik. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. Fürsətdən istifadə edərək, qardaş türk xalqını əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Türkiyə Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildi. Türkiyə dünya miqyasında söz sahibidir. Bölgədə və dünyada Türkiyə ilə hesablaşırlar, Türkiyənin mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bu, bizi çox sevindirir. Çünki Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk.

“Star Rafineri”nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, “Cənub qaz dəhlizi”nin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması - bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq.

Bir sözlə, bu gün “Star Rafineri”nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

Mən bu fürsətdən istifadə edərək qardaş Türkiyə xalqına daim tərəqqi və rifah arzulayıram. Sağ olun.

* * *

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

***Bax: səh. 3***

# İLHAM ƏLİYEV növbəti qlobal təşəbbüsə - Türkiyənin ən böyük enerji layihəsinə müəlliflik etdi

## Azərbaycanın 6,3 milyard dollarlıq sərmayəsi ilə ərsəyə gələn "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı





- Əziz qardaşım Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Sizi ən səmimi hisslərlə, hörmət və məhəbbətlə salamlayıram.

Çıxışımın əvvəlində Azərbaycanı 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm. Sovet İttifaqının dağılması ərəfəsində - 1991-ci il oktyabrın 18-də yenidən azadlığa qovuşan Azərbaycan dünəndən etibarən müstəqilliyinin 27-ci ilini geridə qoydu.

Əslində bugünkü Azərbaycan Türkiyə Respublikasının - bizim son dövlətimizin yaranması kimi qardaşlarımızın da ən gənc dövlətidir. Təxminən bir ay bundan əvvəl Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100 illiyi tədbirləri ilə əlaqədar azərbaycanlı qardaşlarımızla bir yerdə idik. Bakıda şanlı Türkiyə və Azərbaycan ordularının hərbi paradını qardaşlarımızla birlikdə həyəcan və qürurla izlədik. Türkiyə hərbi birlikləri azərbaycanlı qardaşları ilə keçmişdə necə çiyin-çiyinə vuruşmuşdularsa, həmin gün də eləcə çiyin-çiyinə addımladılar. Bu parad iki ölkə arasında əməkdaşlığın, iki dövlət, bir millət olmağımızın göstəricisi idi.

Bu gün "Star" neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdiririk. Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir. Daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələrini həyata keçirmişdik. Bu ilin iyununda hər biri xüsusi əhəmiyyətə malik bu strateji layihələrə regional və qlobal miqyasda nüfuza sahib olacaq TANAP-ı da əlavə etdik.

İndi açılışını etdiyimiz "Star" neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram. Hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - "Star" neft emalı zavodu. Amma bundan başqa konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir.

Hörmətli qonaqlar, 2008-ci ildən etibarən enerji sahəsində ölkəmizdə mühüm layihələr həyata keçirən Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR "Star" neft emalı zavodunu məhz bu rəqəmlə, bu sərmayə ilə ölkəmizə qazandırmışdır. Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq, inşallah, uğurla fəaliyyət göstərəcək.

Bu müəssisə ölkəmizin "Strateji sərmayələrin təşviqi sənədi"nə sahib ilk layihəsi olmaq xüsusiyyətinə də malikdir. Bundan başqa, belə bir investisiya olduqda bizim üzərimizə düşən bir vəzifə var, onlara xüsusi dəstək də verəcəyik. O dəstək də ondan ibarətdir ki, bundan sonra nazirlikdə bütün proseslərin həyata keçirilməsi şərti ilə prosedurlar zamanı bu təşviqdən də istifadə ediləcək. Çünki mərifət lütfkarlıqdan asılıdır. Lütfkarlıq olmasa mənası olmaz.













Eyni zamanda, bu neft emalı zavodu Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Gündə 214 min barel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək.

Məşğulluq baxımından da mühüm əhəmiyyət daşıyan bu müəssisədə 1100 nəfər çalışacaq. Beləliklə, bu zavod Türkiyə və Azərbaycan iqtisadiyyatlarına mühüm fayda verməklə yanaşı, Egey bölgəmizin rifahını yüksəltmiş olacaq.

Biz iki dövlət, bir millət olaraq öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq. Ürəkdən istərdik ki, bölgədəki hər bir ölkə bu səmimiyyəti görə bilsin. Aralıq dənizinin şərq hissəsindəki karbohidrogen ehtiyatları ilə bağlı birtərəfli qaydada baş verən uğursuzluğa məhkum müxtəlif təşəbbüslərdən təəssüf edirik. Bu vəziyyət bölgəmizdə hələ də qeyri-sabitlikdən və gərginlikdən istifadə etmək siyasətindən əl çəkmək istəməyənlərin olduğunu göstərir. Türkiyə olaraq belə cəhdlərə qarşı cavabımızı həm bu yerdən, həm də diplomatik sahədə ən sərt şəkildə verməyi davam etdirəcəyik. Ölkəmizi və qardaşlarımızı nəzərə almayan heç bir təşəbbüsün uğur qazanmaq şansı olmadığını bütün tərəflər görəcəklər. Dostluğa, həmrəyliyə, birlikdə qazanmağa istiqamətlənmiş hər bir təklifə açıq olduğumuzu buradan bir daha bildirmək istəyirəm. Hazırda açılışını etdiyimiz müəssisə məhz bu faydalı əməkdaşlığın ən gözəl nümunəsidir. Hamını belə əməkdaşlığa dəvət edirik.

Hörmətli qonaqlar, Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas aktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz. Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara "Dur!" deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq.

Bu hisslərlə "Star" neft emalı zavodunun açılışını hörmətli qardaşım Əliyev ilə birlikdə etməkdən böyük qürur və məmnunluq duyduğumu bir daha ifadə etmək istəyirəm. "Star" neft emalı zavodu ölkələrimizə, xalqlarımıza və bölgəmizə "Xeyirli olsun!" deyirəm. Bu layihənin ölkəmizdə həyata keçirilməsində başda əziz qardaşım İlham Əliyevə və əməyi olan hər kəsə xüsusi təşəkkür edirəm, sizlərə sevgi və ehtiramımı çatdırıram. Sağ olun.

* * *

Dövlət başçıları zavodun açılışını etdilər.

Sonra birgə foto çəkdirildi.

Daha sonra prezidentlər "Əliağa-SOCAR"ın baş ofisinin binası ilə tanış oldular.

Prezident İlham Əliyevə və Prezident Rəcəb Tayyib Ərdoğana burada yaradılan şərait barədə məlumat verildi. Ofis binası ən müasir avadanlıqla təchiz olunub. Burada İKT-nin ən son yenilikləri tətbiq edilib.

Ofis binasında xatirə şəkli çəkdirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan baş ofisin muzeyi ilə tanış oldular.

Burada "Star" neft emalı zavodunun tikintisi və bu çərçivədə görülən işlər, müəssisənin Azərbaycan və Türkiyə iqtisadiyyatına töhfələri barədə geniş məlumat verilir. Bundan əlavə, SOCAR-ın fəaliyyəti və bu şirkətin Türkiyədə icra etdiyi layihələrdən ətraflı bəhs olunur.



## Səfər başa çatdı

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri oktyabrın 19-da başa çatıb.

***AZƏRTAC***

# Azərbaycanın bir qrup energetikinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda energetika sahəsinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Ağasiyev İlham Əlibaba oğlu
Əliyev Ələkbər Məlik Məmməd oğlu
Xəlilov Seyfəddin Heydər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2018-ci il*

# Azərbaycan energetiklərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abbasov Eldar Yunus oğlu
Ağabalayev Naib Nuxuddin oğlu
Ağayev İbrahim Hümbət oğlu
Əbdülzadə Mətləb Əbdül oğlu
Ələkbərova Qətibə Məhəmmədəli qızı
Əliyev Güloğlan Aslan oğlu
Əliyev İlham Nadir oğlu
Quliyev Elşən Həsənqulu oğlu
Mehdi Qadir Balamehdi oğlu
Məhəmmədəliyev Şahsuvar Nüsrət oğlu
Məmmədxanov Araz Sabir oğlu
Məmmədov Musa Məmməd oğlu
Məsimova Xalidə Məhəmməd qızı
Molodetski Nikolay Feliksoviç
Musayev Sahib Aslan oğlu
Mustafayev Tanırverdi Qiyas oğlu
Nəsirov Tahir İsa oğlu
Rüstəmov Dolu Həsən oğlu
Rzayev Emin Hüseynağa oğlu
Seyidov Elmar Əjdər oğlu
Süleymanova İradə Kamil qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2018-ci il*

# G.S.Cavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda energetikanın inkişafında xidmətlərinə görə Gülməmməd Süleyman oğlu Cavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2018-ci il*

# Prezident İlham Əliyev: "Azərbaycan dünyada mövqeyi nəzərə alınan güc amilinə çevrilir"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 69-cu kitabı çapdan çıxıb

"Azərbaycan dövləti çoxşaxəli, balanslaşdırılmış xarici siyasət kursu həyata keçirərək beynəlxalq aləmə uğurla inteqrasiya olunub, region və dünya ölkələri ilə səmimi, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan çoxtərəfli və ikitərəfli əlaqələr qurub. Güclü potensialımız bizə imkan verir ki, beynəlxalq arenada tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürüdək. Azərbaycan regionun aparıcı ölkəsi olmaqla yanaşı, dünyada mövqeyi nəzərə alınan güc amilinə çevrilir, qlobal məsələlərin həllinə cəlb olunur".




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 69-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2015-ci il mayın 22-də "Bakı-2015" I Avropa Oyunları ilə bağlı "The Business Year" jurnalına müsahibəsində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 69-cu kitabındakı materiallar 2015-ci ilin mayından iyul ayınadək olan dövrü əhatə edir.

Bu kitabın əsas materialları Azərbaycanın evsahibliyi etdiyi I Avropa Oyunları ərəfəsində və yarış günlərində dövlətimizin başçısının iştirakı ilə keçirilən mühüm tədbirlərə dair informasiyalardan ibarətdir. Belə ki, kitabda Prezident İlham Əliyevin I Avropa Oyunlarının atletlər və media kəndlərinin, avtobus deposu və təlim mərkəzinin açılış mərasimlərində iştirakına, Avropa Oyunları parkının qarşısında, Oyunların Əməliyyat Komitəsinin baş ofisində, idmanın bir neçə növü üzrə yarışların keçiriləcəyi "Baku Crystal Hall"da, Tofiq Bəhramov adına Respublika stadionunda yaradılan şəraitlə tanışlığına dair materiallar toplanıb, Avropa Oyunları ilə bağlı tədbirlərdə çıxış və nitqləri yer alıb.

Nəşrdə dövlət başçısının "Bakı-2015" I Avropa Oyunları ərəfəsində Dövlət Bayrağı Meydanı ərazisində Heydər Əliyev Fondunun layihələri olan yeni mədəniyyət obyektlərinin - "Daş salnamə" muzeyinin, "XX-XXI əsr Azərbaycan rəngkarlığı" ekspozisiyasının, habelə "Azərbaycan Evi"nin açılışlarında iştirakına, YARAT Müasir İncəsənət Mərkəzinin ilk daimi məkanı ilə tanışlığına dair materiallarla da tanış olmaq mümkündür.

Kitaba, həmçinin Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün müxtəlif ölkələrin Bakıya gəlmiş dövlət və hökumət başçıları ilə Prezident İlham Əliyevin keçirdiyi görüşlərə, apardığı danışıqlara dair informasiyalar daxil olunub.

Azərbaycan Prezidentinin İtaliya Respublikasına işgüzar səfəri zamanı "Milan Expo 2015" sərgisində nitqi, İtaliya Prezidenti və Baş naziri ilə görüşlərinə dair materiallar da bu kitabda yer alıb.

Oxucu 69-cu kitabda dövlət başçısının, həmçinin XXII Beynəlxalq Xəzər Neft və Qaz sərgisinin açılışı mərasimində, Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqlərinin mətnləri ilə tanış ola bilər.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 69-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planına" uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda "Peşə təhsili müəssisələri şəbəkəsinin təşkili, idarə edilməsi və maliyyələşdirilməsinin təkmilləşdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün mövcud vəziyyət və qarşıda duran problemlər" və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın icra vəziyyəti müzakirə olunub.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil islahatlarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini vurğulayan Baş nazir Novruz Məmmədov, dövlət başçısının 15 illik prezidentliyi dövründə təhsil sahəsinin də dinamik inkişaf etdiyini diqqətə çatdırdı. Xüsusən, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə göstərdiyi böyük diqqət və qayğının təcəssümüdür.

Baş nazir ötən müddət ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamikanın müşahidə olunduğunu, bir sıra əsaslı nailiyyətlərin əldə edildiyini dedi. Bildirdi ki, strategiyada nəzərdə tutulmuş 5 mühüm istiqamət müəyyən edilib, hədəflərə nail olmaq üçün təhsilin müxtəlif pillə və səviyyələrinə, o cümlədən peşə təhsili pilləsinə aid dövlət sənədləri qəbul olunub, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə tədbirlər görülüb. "Təhsilin inkişafına dair Dövlət Strategiyası"nın və "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin əsas hədəfi ölkə iqtisadiyyatının inkişafına uyğun olaraq çevik və bazaryönümlü peşə təhsili sisteminin yaradılması və fəaliyyətinin təmin edilməsidir. Bu məqsədlə respublikada peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və təşkili ilə bağlı Nazirlər Kabineti müvafiq qərarlar qəbul edib.

Bununla yanaşı, müzakirə olunan sahədəki mövcud problemlərə də toxunan Baş nazir Novruz Məmmədov bildirib ki, müasir çağırışlara cavab verən, əmək bazarının tələblərinə uyğun peşələr üzrə kadr hazırlığını təmin edən ixtisaslaşdırılmış peşə tədris mərkəzlərinin yaradılması xüsusilə önəmlidir. Lakin peşə təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılması, yeni peşə təhsili mərkəzlərinin yaradılması bu tipli müəssisələrdə müasir tələblərə cavab verən maddi-texniki baza və təhsil şəraiti olmadan səmərə verə bilməz. Bu baxımdan "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas məqsədləri ölkədə ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə və əhatəliliyinə görə qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaq, Azərbaycanın təhsil sistemini iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğunlaşdırmaq, nəticə etibarilə ölkənin davamlı inkişafını təmin etməkdir.

Sonra gündəlikdə duran hər iki məsələyə dair təhsil naziri Ceyhun Bayramovun məruzələri dinlənildi.

Məruzələr ətrafında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev, Nazirlər Kabinetinin şöbə müdiri Musa Ələkbərov və başqaları çıxış etdilər.

Ölkədə təhsilin inkişafı məsələlərinə dair aparılan ətraflı fikir mübadiləsindən sonra müzakirələrə yekun vuran Baş nazir Novruz Məmmədov nəzərdə tutulmuş tapşırıqların icrası ilə əlaqədar müvafiq göstərişlər verdi.

# Azərbaycan ağsaqqalları Prezident İlham Əliyevin siyasi kursunun ən fəal müdafiəçilərindəndirlər

Oktyabrın 19-da Azərbaycan Ağsaqqallar Şurasında "Ağsaqqalların ölkənin ictimai-siyasi həyatında rolu" mövzusunda konfrans keçirilmişdir. Öncə iştirakçılar 27 illik müstəqillik yolundan bəhs edən videoçarxa baxmışlar.





Ağsaqqallar Şurasının sədri, Milli Məclisin komissiya sədri Fəttah Heydərov müstəqil Azərbaycanın qazandığı nailiyyətlərdən söz açdı. Sədr ulu öndər Heydər Əliyevin mənalı həyatının müxtəlif mərhələlərindən, vətən və xalq yolunda, habelə milli müstəqilliyin ölkəmizin daimi sərvətinə çevrilməsindəki misilsiz xidmətlərindən danışdı: "Ulu öndərin siyasi kursunun yeganə doğru yol olduğuna bir daha əmin olan xalqımızın böyük əksəriyyəti 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi İlham Əliyevi dəstəkləyərək onu Azərbaycanın Prezidenti seçdi".

Fəttah Heydərov vurğuladı ki, cənab İlham Əliyevin 15 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyi hər vasitə ilə möhkəmləndirmək dayanır. Dövlət başçısı xalqa verdiyi vədləri tam yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib.

Fəttah Heydərov bildirdi ki, Prezident İlham Əliyevin ötən 15 illik fəaliyyəti ölkə iqtisadiyyatında qazanılan misilsiz uğurlarla zəngindir. Bu illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Azərbaycanın 2004-cü ildə 1,8 milyard dollar olan valyuta ehtiyatları bu gün 46 milyard dollara çatdırılıb.

Ağsaqqallar Şurasının ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etdiyini diqqətə çatdıran Fəttah Heydərov vurğuladı ki, dövlət başçısının müdrik və uzaqgörən siyasətini dəstəkləyən ağsaqqalar bundan sonra da fəaliyyətlərini uğurla davam etdirəcəklər.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə isə bildirdi ki, bir neçə gündür ölkədə bayram əhval-ruhiyyəsi yaşanır. Həm cənab İlham Əliyevin Prezident seçilməsinin 15 illiyi, həm də 18 oktyabr Müstəqillik Gününün sevinci bir-birinə qarışıb. Azərbaycanın 27 illik keşməkeşli tarixinin canlı şahidi olan ağsaqqallar bu gün dövlətin ən qüdrətli dövründə yaşayırlar. Bu, həqiqətən, böyük fəxarət hissidir: "Bir zaman ulu öndər Heydər Əliyevin uçurumdan xilas etdiyi Azərbaycanın səsi bu gün BMT-dən, NATO-dan, UNESCO-dan gəlir. Bütün bunları isə dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev həyata keçirir. Biz bu gün bu siyasətlə qürur duyuruq". Akademik Akif Əlizadə ölkə ağsaqqallarının hər zaman dövlət başçısı İlham Əliyevin müstəqil siyasətinin dəstəkçisi olduqlarını söylədi.

"Ağsaqqallıq mükəmməl dəyərdir və Azərbaycan xalqı hər zaman ağsaqqala böyük qiymət verib. Ağsaqqallıq müdriklikdir və bu, təkcə yaşla, elmlə deyil, həm də ağıl, müdriklik və nüfuz ilə ölçülür". Bu fikirləri isə Ağsaqqallar Şurasının məclis üzvü, Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov söylədi. 27 illik müstəqillik dövründə Azərbaycanın keçdiyi yola, qazandığı nailiyyətlərə nəzər salan Bəxtiyar Sadıqov bildirdi ki, bu qısa zaman kəsiyində həm çətin günlər yaşayan, həm də sürətli inkişaf mərhələsi keçən ölkəmiz qlobal miqyasda "ağsaqqal" statusu qazanıb. Çünki bu gün müstəqil Azərbaycan beynəlxalq miqyasda çox mühüm təşəbbüslər irəli sürür, münaqişə vəziyyətində olan müsəlman dövlətlərini bir araya gətirir, Avropanın enerji təhlükəsizliyini təmin edir, sabitlik, tolerantlıq nümunəsi yaradır. Bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin tərkib hissəsidir: "Bu gün cənab İlham Əliyevin tam müstəqil siyasəti ilə ölkəmiz dünya birliyində etibarlı tərəfdaş kimi qəbul olunur. Həyata keçirilən meqalayihələr - Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, ötən gün Türkiyənin İzmir şəhərində Türkiyə və Azərbaycanın dövlət başçılarının açılışını etdikləri "Star" neft emalı zavodu və digərləri ölkəmizi Avrasiya məkanında nəqliyyat-tranzit və logistika mərkəzinə çevirib. Məhz bu uğurlarla İlham Əliyev Azərbaycanı "ağsaqqal dövlət"ə çevirib".

Deputat vurğuladı ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Azərbaycanı daim inkişafa aparıb. Dünya İqtisadi Forumunun son hesabatında da bütün bunlar öz əksini tapıb. Belə ki, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi quymətləndirilib. Bütün bunlar cənab İlham Əliyevin Azərbaycana qazandırdığı tarixi nailiyyətlərdir: "Biz dövlətimizlə fəxr edirik və daim Prezident İlham Əliyevin yanındayıq. Hər birimizin borcudur ki, gəncləri də bu ruhda tərbiyyə edib uğurlarımızı daha da inkişaf etdirək".

Ağsaqqallar Şurası sədrinin müavini, akademik Teymur Bünyadov isə dedi ki, cənab İlham Əliyev ulu öndərin arzularına işıq tutaraq onun istəklərini məşələ çevirib. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyada söz sahibinə çevrilib. O dedi ki, əgər ulu öndər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi məhv olmaqdan qurtarıbsa, İlham Əliyev o dövləti qüdrətli ölkəyə çevirib.

Ağsaqqallar Şurasının üzvləri Südeyf İmamverdiyev, Nəriman Həsənzadə, Vasim Məmmədəliyev, Məhəmməd Məhəmmədov, Xalid Qurbanov çıxış edərək müstəqillik yoluna bir daha nəzər yetirdilər. Bildirildi ki, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, bəkə də bu gün müstəqil Azərbaycan bir dövlət kimi mövcud deyildi. Ona görə də dahi lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, banisi hesab olunur. Prezident İlham Əliyev isə Azərbaycanı dünyaya tanıdaraq, tarixinin ən qüdrətli dövlətinə çevirib. Bu gün Azərbaycan əsl Heydər Əliyevin görmək istədiyi dövlətdir, dünyaya günəş kimi doğan respublikadır.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul işçisi Rasim Mirzəyev qeyd etdi ki, müstəqilliyinin ilk illərində böyük təlatümlər yaşayan Azərbaycan 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra uğurlu inkişaf mərhələsinə qədəm qoydu. İllər keçdikcə ölkəmizin dünya birliyindəki siyasi çəkisi, iqtisadi gücü daha da artmağa başladı. 2003-cü ildən etibarən Prezident İlham Əliyevin gərgin səyləri nəticəsində bu inkişaf şaxələndirildi, dövlət müstəqilliyimiz daha da möhkəmləndi. Ötən 27 ildə Azərbaycan zəngin və şərəfli inkişaf yolu keçib.

Sonda isə dövlət başçısı tərəfindən "Şərəf" ordeni ilə təltif edilən Ağsaqqallar Şurasının məclis üzvü Vasif Babazadə, "Şöhrət" ordeni ilə mükafatlandırılan məclis üzvü Bəxtiyar Sadıqov, həmçinin yubileyləri qeyd edilən digər şura üzvləri fəxri diplomlarla təltif edildilər.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Star" layihəsi Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin strateji xarakter daşımasının nümunəsidir



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev "TRT World" kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibədə Hikmət Hacıyev Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə açılışı olan "Star" neft emalı zavodu barədə danışıb. O, bu layihənin əsasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulduğunu qeyd edib. Layihənin Azərbaycanın Türkiyə iqtisadiyyatına böyük etibarının, iki ölkə arasında qardaşlıq əlaqələrinin strateji xarakter daşımasının nümunəsi olduğunu deyən Hikmət Hacıyev Azərbaycanın Türkiyəyə 20 milyard ABŞ dolları həcmində sərmayə yatıracağını diqqətə çatdırıb.

Azərbaycanın və Türkiyənin enerji əməkdaşlığının Bakı-Tbilisi-Ceyhan layihəsi ilə başladığını qeyd edən Hikmət Hacıyev Azərbaycanda neft-kimya sənayesinin inkişafı və Türkiyədə həyata keçirilən bu layihələrlə ölkəmizin karbohidrogen ixracında yalnız xam məhsul deyil, əlavə dəyər qatılan hazır məhsullarla Aralıq dənizi hövzəsinə çıxdığını vurğulayıb. O, Azərbaycanın Türkiyə və digər tərəfdaşlarla birgə icra etdiyi TANAP, TAP qaz layihəsinin Türkiyənin və Avropa ölkələrinin enerji təhlükəsizliyinə əsaslı dərəcədə töhfə verəcəyini diqqətə çatdırıb.

Prezident Administrasiyasının rəsmisi Azərbaycanın bu kimi iqtisadi layihələrlə regional əməkdaşlığın yeni nümunələrini yaratdığını, regional sülhə, çiçəklənməyə və sabitliyə töhfə verdiyini diqqətə çatdırıb. O, Azərbaycanın etibarlı və xoşniyyətli tərəfdaş olduğunu və bu qəbildən olan əməkdaşlığı dəstəklədiyini qeyd edib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Baş Qərvənd, Kəngərli, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Azərbaycanın müdafiə naziri “Czechoslovak Group” holdinqin rəhbərliyi ilə görüşüb

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Çex Respublikasına səfəri çərçivəsində bu ölkənin iri sənaye holdinqi - “Czechoslovak Group”un rəhbərliyi ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, holdinqə daxil olan müdafiə sənayesi şirkətlərinin fəaliyyəti və onların istehsal etdikləri məhsullar barədə brifinqlər təqdim olunub.

# İtaliya Senatının sədri Heydər Əliyev Mərkəzində olub

Ölkəmizdə səfərdə olan İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati oktyabrın 19-da Heydər Əliyev Mərkəzini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, qonaq əvvəlcə Heydər Əliyev Muzeyi ilə tanış olub. Qeyd edilib ki, muzeydə ümummilli lider Heydər Əliyevin irsi və Azərbaycan tarixinə dair materiallar təqdim edilir. İnteraktiv formada təqdim edilən foto və video materiallar ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti, Azərbaycan tarixinin müxtəlif dövrləri üzrə geniş məlumat əldə etməyə imkan yaradır.







Daha sonra Maria Elisabetta Alberti Kasellati Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş “Əbədiyyət xəzinəsi” adlı sərgi ilə tanış olub.

Senatın sədrinin diqqətinə çatdırılıb ki, “Əbədiyyət xəzinəsi” sərgisi Heydər Əliyev Fondu, Florensiyanın Uffizi Qalereyası, Heydər Əliyev Mərkəzi, İtaliyanın Mədəniyyət və Turizm Nazirliyi və İtaliyanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə təşkil edilib. Bu sərgi tamaşaçını Şah İsmayılın və onun oğlu və varisi Şah Təhmasibin hakimiyyətdə olduqları dövrlərə aparır.

Sərginin eksponatları arasında Şah İsmayılın və Şah Təhmasibin möhürlərinin izləri, habelə Cənubi Azərbaycan vilayətlərindən birində iqtisadi işlərin normallaşdırılması haqqında 1502-ci ildə çıxarılan fərmanın fotoşəkli də var. XV-XVI əsrlərin Təbriz məktəbinin miniatürlərinin təsviri ilə videoproyeksiya, müasir sənətkarların Şah İsmayıla həsr edilən əsərləri, görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin “Şah İsmayıl” operasından səhnələrin fotoşəkilləri, o dövrün həyatından xəbər verən müasir interpretasiya kimi videoinstalyasiya - bütün bunları bugünkü ekspozisiya çərçivəsində görmək mümkündür.

Şah İsmayılın və onun oğlu Şah Təhmasibin Florensiyanın Uffizi Qalereyasının ilk dəfə Azərbaycana gətirilən iki orijinal portreti qonaqda maraq doğurub. Kristofano Dell'Altissimonun müəllifi olduğu bu portretlər sərginin mərkəzi eksponatları olmaqla, bütün ekspozisiyanın ruhunu təşkil edir. Sonra xanım Maria Elisabetta Alberti Kasellati Heydər Əliyev Mərkəzindəki “Mini Azərbaycan” sərgisinə baxıb. Qonağa məlumat verilib ki, bu sərgidə Azərbaycanın tarixi və memarlıq binalarının maketi vasitəsilə ölkənin zəngin memarlıq nümunələrini görmək imkanı var.

Maria Elisabetta Alberti Kasellati Heydər Əliyev Mərkəzindəki sərgilərlə tanışlıqdan məmnun qaldığını bildirib.

# İtaliya Senatının sədrinə Azərbaycan Dillər Universitetinin fəxri doktoru diplomu təqdim edilib

“Azərbaycanla İtaliya arasındakı münasibətlər və əməkdaşlıq yüksək səviyyədədir. Qarşılıqlı səfərlər və mövcud münasibətlər səmimi dostluğun bariz nümunəsidir”.

AZƏRTAC xəbər verir ki, İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati bu fikirləri Azərbaycan Dillər Universitetində səsləndirib.

İtaliya Senatının sədri Azərbaycan Dillər Universitetində Dünyada XVIII italyan dili həftəsi çərçivəsində keçirilən “İtalyan dili və şəbəkə, italyan dilinin şəbəkələri” mövzusunda seminarda iştirak edib.



Universitetin rektoru, akademik Kamal Abdulla ali məktəbdə digər xarici dillərlə yanaşı, italyan dilinin də tədris olunduğunu deyib. Diqqətə çatdırıb ki, hazırda bu təhsil ocağında italyan dili kafedrası və mərkəzi fəaliyyət göstərir. Universitetin Elmi Şurasının qərarı ilə İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati Azərbaycan-İtaliya arasında ictimai-siyasi, humanitar və elm sahəsində münasibətlərin, xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsindəki töhfələrinə görə bu ali təhsil ocağının fəxri doktoru adına layiq görülüb.

Maria Elisabetta Alberti Kasellatiyə fəxri doktor diplomu və mantiya təqdim olunub. Sonra Kamal Abdulla özünün “Yarımçıq əlyazma” romanının italyan dilində nəşrini qonağa təqdim edib.

Maria Elisabetta Alberti Kasellati İtaliya Konstitusiyasının müxtəlif dillərə tərcümə olunan nəşrlərini Azərbaycan Dillər Universitetinə hədiyyə edib. Diqqətə çatdırıb ki, yüksək səviyyəli qarşılıqlı səfərlər, ölkələrimiz arasında münasibətlər səmimi dostluğun bariz nümunəsidir. Universitetin tələbəsi “Amiamo l'Italia” mahnısını səsləndirib.

Sonda Maria Elisabetta Alberti Kasellati fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

# Bələdiyyələr daşınmaz əmlakın dövlət reyestrindən məlumat ala biləcəklər

Ötən gün Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirildi. İclasda gündəlikdəki məsələlərlə bağlı məlumat verən komitə sədri Arif Rəhimzadə bildirdi ki, müzakirəyə üç məsələ çıxarılsa da, onlardan ikisi - “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihə artıq ikinci oxunuşdan keçib.

“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi isə yenidir: “Daşınmaz əmlakdan vergi tutulması bələdiyyələr üçün vacib gəlir mənbələrindən biridir, amma bu, indiyə kimi olmayıb. Çünki bələdiyyələrin əhalinin ixtiyarında olan daşınmaz əmlakın sahəsi barədə məlumatı yox idi və bunu əldə edə bilmirdilər. Bu qanun qəbul edildikdən sonra bələdiyyələr ərazilərində yerləşən vergitutma obyektlərinin müəyyən edilməsi məqsədi ilə daşınmaz əmlakın dövlət reyestrindən qanunla müəyyənləşdirilmiş qaydada məlumat ala biləcəklər”.

Komitə sədrinin sözlərinə görə, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında”, qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi “Daşınmaz əmlakın dövlət reyestri haqqında” 2018-ci il 13 fevral tarixli qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Həmin qanunda nəzərdə tutulur ki, səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar bələdiyyələrə daşınmaz əmlakın dövlət reyestrinin məlumatları müəyyən edilmiş qaydada və ödəniş əsasında verilməlidir.

Arif Rəhimzadə “Bələdiyyələrin statusu haqqında” qanunda dəyişiklik edilməsi barədə də məlumat verərək dedi ki, qəbiristanlıqların salınması və idarə olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilir. Həmin qaydaların tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsində qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədi ilə həmin qaydaları pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində 4-cü maddəyə yuxarıda göstərilən dəyişikliyin edilməsi təklif olunur.

Komitə sədri tərəfindən “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də təsdiq edildi. Bildirildi ki, bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi məqsədi ilə yerli büdcədə zəruri xərclər nəzərdə tutulur və təyinatı üzrə sərf edilir.

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli qanununa uyğun olaraq hazırlanıb və yerli (bələdiyyə) büdcədə qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması məqsədi ilə zəruri xərclərin nəzərdə tutulmasını təsbit edir.

Hər üç qanun layihəsi barədə müsbət rəy bildirən deputatlar sənədləri plenar iclasa tövsiyə etdilər.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycan və Latviya bələdiyyələri arasındakı əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafında mühüm yer tutur

Oktyabrın 19-da Latviya Bələdiyyələr İttifaqının nümayəndə heyəti Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Arif Rəhimzadə Azərbaycanla Latviya arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu, digər sahələrdə də əməkdaşlığın getdikcə inkişaf etdiyini bildirib.

Komitə sədri ölkəmizin bələdiyyə sistemindəki yenilikləri, qanunvericilik bazası, əldə olunan nəticələr barədə qonaqlara məlumat verib. Diqqətə çatdırıb ki, ölkədə 1500-ə yaxın bələdiyyə var, lakin Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna görə bu ərazilərdə yerli özünüidarəetmə orqanlarının yaradılması mümkün deyil.

Komitənin üzvü Kamran Bayramov bildirib ki, bələdiyyələrimiz arasındakı əməkdaşlıq iki ölkənin münasibətlərinin inkişafında mühüm yer tutur. Deputat Latviyada fəaliyyət göstərən Azərbaycan Ticarət Evinin iqtisadi əməkdaşlığın genişlənməsinə töhfə verdiyini qeyd edib. Latviyanın Azərbaycandakı səfiri Yuris Maklakovs diqqətə çatdırıb ki, mövcud iqtisadi potensial hazırkı əməkdaşlıqdan qat-qat çoxdur. Bu baxımdan Latviya Azərbaycanla iqtisadi, regional əməkdaşlığın daha da inkişafını, o cümlədən qarşılıqlı ticarət dövriyyəsinin artırılmasını istəyir. Səfir yerli özünüidarəetmə sahəsində yaxşı əlaqələrin qurulduğunu vurğulayaraq bunun tərəflər üçün faydalı olduğunu deyib. O əlavə edib ki, nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində bir sıra şəhər və rayonlarda görüşlər keçirib, müxtəlif ideyalar ətrafında faydalı müzakirələr aparıb.

Latviya Bələdiyyələr İttifaqının sədri Gints Kaminskis beynəlxalq qurumlardakı birgə əməkdaşlığın səmərəsindən danışıb, yerli özünüidarəetmə sahəsində qarşılıqlı təcrübə mübadiləsi barədə fikirlərini bölüşüb.

Görüşdə Milli Məclisin deputatları Azər Badamov, Fəzail İbrahimli, Rüstəm Xəlilov, Malik Həsənov, Tahir Rzayev, Cavid Osmanov və digər rəsmi şəxslər iştirak ediblər.

# “Heydər Əliyev və Azərbaycan tarixi” bilik yarışının qalibləri ilə Dövlət Sərhəd Xidmətində görüş keçirilib

Qurucusu ulu öndər Heydər Əliyev olan Dövlət Sərhəd Xidməti (DSX) ötən dövrdə sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir hərbi quruma çevrilib. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilməsi, Azərbaycan Sərhəd Mühafizəsinə göstərilən ali dövlət qayğısı dayanır.

Prezident İlham Əliyevin 2007-ci il 12 iyul tarixli sərəncamı ilə Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması və 2010-cu il avqustun 10-da onun yeni binalar kompleksinin xidməti istifadəyə verilməsi, 2011-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılması ilə DSX-də kadrların hazırlanması üzrə mükəmməl tədris sistemi formalaşdırılıb.

Sərhədçi kursantların, o cümlədən Dövlət Sərhəd Xidmətinin bütün hərbi qulluqçularının hərbi vətənpərvərlik tərbiyəsinin əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin və ulu öndərin banisi olduğu milli dövlətçiliyimizin təşəkkül tarixinin öyrənilməsi təşkil edir. Dövlət Sərhəd Xidmətinin “Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzi”nin dəstəyi və təşkilatçılığı sayəsində bütün hərbi hissələrdə, xüsusilə də DSX Akademiyasında və Xüsusi Məktəbində ulu öndərin həyat salnaməsinin, təhlükəsizlik orqanlarında xidmət illərinin və siyasi fəaliyyətinin, sərhəd təhlükəsizliyi konsepsiyasının banisi kimi Azərbaycan sərhəd mühafizəsi tarixindəki müstəsna xidmətlərinin tədqiq edilməsinə, gənc nəslin Heydər Əliyev ideyalarına sadiqlik ruhunda tərbiyəsinə ciddi önəm verilir.



Oktyabrın 18-də 47 ali təhsil müəssisəsinin bakalavr və magistr səviyyələri üzrə əyani təhsil alan tələbələrindən ibarət komandalarının iştirak etdiyi, Heydər Əliyev Mərkəzinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən “Heydər Əliyev və Azərbaycan tarixi” V ümumrespublika bilik yarışında Dövlət Sərhəd Xidmətinin Akademiyasının komandası birinciliyi qoruyaraq, 2017-ci ildə olduğu kimi, qalib adını qazanıb.

Ulu öndər Heydər Əliyevin irsinin öyrənilməsi istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin mühüm göstəricisi olan bu qələbə xəbəri Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılanıb.

Oktyabrın 19-da Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bilik yarışının qaliblərini və onları hazırlamış müəllim heyətini qəbul edib.

General-polkovnik Elçin Quliyev kursantları və onların müəllimlərini qələbə münasibətilə səmimi təbrik edərək Azərbaycan Sərhəd Mühafizəsinin təşəkkülündə və formalaşmasında dahi öndər Heydər Əliyevin müstəsna rolunu xüsusi olaraq vurğulayıb. DSX rəisi Azərbaycan Respublikasına rəhbərlik etməsinin 15 illiyini təntənəli surətdə qeyd etdiyimiz Prezident İlham Əliyevin ölkəmizi regionun lider dövlətinə və beynəlxalq münasibətlər sisteminin etibarlı tərəfdaşına çevirməsini, Azərbaycan xalqının gələcəyinə ünvanlanmış milli dövlətçilik strategiyasını uğurla gerçəkləşdirməsini, dövlət quruculuğunun və ictimai həyatın bütün sahələrində olduğu kimi, dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkilində də əsaslı islahatların aparılmasını və önəmli nəticələrin əldə edilməsini bildirib.

General-polkovnik Elçin Quliyev 2014-cü ildən keçirilən və Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycan tarixi” ümumrespublika bilik yarışlarında Dövlət Sərhəd Xidməti Akademiyasının komandasının hər zaman ilk beşlikdə yer tutmasını, 2017-ci və 2018-ci illərdə isə ardıcıl olaraq qələbə qazanmasını Azərbaycan sərhədçilərinin Heydər Əliyev ideyalarına və milli dövlətçiliyə sadiqliyinin mühüm göstəricisi, gənc sərhədçi nəslinin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində qazanılmış ciddi uğur kimi qiymətləndirib.

“Heydər Əliyev və Azərbaycan tarixi” V ümumrespublika bilik yarışında yüksək bilik və əzmkarlıq nümayiş etdirərək ən yüksək nəticə göstərmiş kursantlar və müəllimlər dövlət təltifləri və fəxri fərmanlar ilə mükafatlandırılıblar.

***“Azərbaycan”***

# Beynəlxalq miqyasda etiraf edilən yüksəliş

## Yeni Qlobal Rəqabətlilik Hesabatı Azərbaycandakı inkişaf prioritetlərinin sürətlə reallaşdığını göstərir

*Əvvəli 1-ci səh.*

Elə bunun nəticəsidir ki, dünyanın ən nüfuzlu iqtisadi institutlarının araşdırmalarında, hesabatlarında Azərbaycana böyük diqqət yetirilir, ölkəmizlə bağlı göstəricilər mütəmadi olaraq müsbətə doğru dəyişir. Dünya İqtisadi Forumunun, Dünya Bankının və digər mötəbər ünvanların hər il hazırladıqları hesabatlar bunu təsdiqləyən mühüm sənədlər kimi çıxış edir.

Bu günlərdə Dünya İqtisadi Forumunun tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilən Qlobal Rəqabətlilik Hesabatında da Azərbaycandakı inkişaf prosesləri obyektiv qiymətləndirilib. Hesabatla tanışlıq ölkəmizin inkişaf prioritetlərinin sürətlə real həyata vəsiqə aldığını göstərir.

### 12 əsas indikatorun 7-si üzrə ölkəmizin mövqeləri yaxşılaşıb

Öncə onu qeyd edək ki, qlobal trendlər nəzərə alınmaqla, hesabatın metodologiyasında dəyişikliklər o qədər dərin və əhatəli olub ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil “4.0” kimi təqdim edib. Bu isə onu deməyə əsas verir ki, “Qlobal Rəqabətlilik Hesabatı-2018/2019” yeni dövrün ilk hesabatıdır. Əvvəlki illərdən fərqli olaraq, metodologiya ciddi şəkildə dəyişdirilərək hesabata yeni indikatorlar daxil edilib. Ümumilikdə əvvəlki hesabatın 114 indikatorundan 84-ü (74 faizi) çıxarılıb, 68 yeni indikator daxil edilib. Hesabatda mövcud 98 indikatorun 70 faizi tamamilə yenidir.

Beləliklə, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatının yeni metodologiyası əsasında ilk dəfə qiymətləndirilib. Ölkəmiz ilk hesabatda Türkiyə, Serbiya, Gürcüstan, Cənubi Afrika Respublikası və Xorvatiya ilə bir sırada dayanıb. Hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. İnstitutlar, İnfrastruktur, İnformasiya-kommunikasiya texnologiyalarının istifadə səviyyəsi, Səhiyyə, Əmək bazarı, Biznes dinamikliyi və İnnovasiya potensialı sütun indikatorları üzrə Azərbaycanın mövqelərinin yaxşılaşması Qlobal Rəqabətlilik Hesabatı tərəfindən qeydə alınıb.

Lakin onu da qeyd edək ki, Azərbaycanın Qlobal Rəqabətlilik Hesabatında irəlidə olduğu alt-indikatorların böyük bir qismi yeni metodologiyada nəzərə alınmayıb. Azərbaycan dövlət büdcəsinin icrası, ümumi dövlət borcu, ümumi milli yığım, ölkənin kredit reytinqi kimi məsələlərdə əvvəlki hesabatlarda daim öncül mövqedə dayanır. Amma bu indikatorlar yeni metodologiyaya salınmayıb.

### 140 ölkə arasında 31-ci

Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb. Belə yüksək nəticənin qazanılması son illər Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar nəticəsində mümkün olub. Həmin indikatora əsasən, Azərbaycanın mövqeyi biznesə başlamaq üçün tələb olunan günlərin sayı alt-indikatoru üzrə 17-ci, müflisləşmə normativ hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci olub.

Azərbaycanda əlverişli biznes mühitinin olması, bu sahədəki göstəricilərin dinamikası həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində sahibkarlığın inkişafı sahəsində müşahidə edilən pozitiv meyillər daha qabarıq şəkildə özünü göstərir. Ölkədə biznes mühitinin yaxşılaşdırılması, bu sahədə həyata keçirilən islahatlar və digər genişhəcmli tədbirlər nəticəsində özəl sektorun ÜDM-dəki payı əhəmiyyətli dərəcədə artıb.

Xatırladaq ki, Azərbaycanda aparılan iqtisadi islahatlar dünyadakı inkişaf proseslərini yaxından izləyən digər təşkilatların diqqətindən yayınmır. Bunu Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən “Doing Business” hesabatları da təsdiq edir. Bu hesabatlarda Azərbaycanda biznes mühitinin qiymətləndirilməsi ölkəmizdə həyata keçirilən islahatlara və əldə olunan nəticələrə obyektiv qiymətidir.

Dünya Bankının hesabatlarında Azərbaycan daha çox islahat aparan ölkələr sırasında yer alır, həmçinin biznesə başlama indikatoru üzrə öncül mövqedə qərarlaşıb.

### Sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə

Dünya İqtisadi Forumunun yeni Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi qiymətləndirilib. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlib. Yeni metodologiya əsasında hazırlanmış ilk Qlobal Rəqabətlilik Hesabatında ölkələrin reytinqinə birbaşa təsir göstərməsə də, sosial və ətraf mühit performansı üzrə indikatorlara da yer ayrılıb. Azərbaycan ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə yeni nəsil metodologiya əsasında hazırlanmış hesabatda lider mövqelərini qoruyub.

Qlobal trendlər nəzərə alınmaqla tamamilə yeni yanaşma əsasında hazırlanmasına baxmayaraq, Azərbaycan yeni dövrün ilk Qlobal Rəqabətlilik Hesabatında bir neçə indikator üzrə yüksək nəticələr əldə edib. Bu nəticələr Azərbaycanın gələcəkdə digər indikatorlar üzrə də daha yaxşı nəticələr əldə etməsi üçün yeni imkanlar açır.

Azərbaycanın yüksək göstəricilərə nail olmasını şərtləndirən amillərdən başlıcası ölkəmizdə mövcud olan güclü makroiqtisadi sabitlik və bu sahədə daim aparılan islahatlardır. Bu cür hesabatlar isə Azərbaycanın inkişaf dinamikasının beynəlxalq aləmdə də yaxından izləndiyini, təqdir olunduğunu və ölkəmizin həqiqətən də iqtisadi tərəqqi sahəsində özünəməxsus nümunənin əsasını qoyduğunu nümayiş etdirməkdədir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası ADA Universitetində tibbi aksiya keçirib






Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası mütəmadi olaraq Bakıda və ölkəmizin müxtəlif regionlarında səyyar xidmət göstərir.

Oktyabrın 18 və 19-da mərkəzin Avtomobil Səyyar Klinikası ADA Universitetində oftalmoloji tibbi aksiya keçirib.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, iki gün davam edən aksiya zamanı Səyyar Klinikanın əməkdaşları tərəfindən ADA Universitetinin 400-ə yaxın tələbə və müəlliminə tibbi xidmət göstərilib.

Tədbirin məqsədi pasiyentlərin səhhətləri ilə bağlı problemlərin həll olunmasına kömək göstərməkdir. Aksiya çərçivəsində aşkar olunan göz xəstəlikləri ilə bağlı monitorinqlər aparılıb, problemin həlli yolları müzakirə olunub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həyata keçirdiyi tədbirlər gündən-günə artır və bu, ölkə başçısının səhiyyə ilə bağlı reallaşdırdığı layihələrin əsas tərkib hissələrindən biri hesab olunur.

Qeyd edək ki, 2005-ci ildən mərkəzin avtomobil Səyyar Klinikası mütəmadi olaraq paytaxtda və respublikanın müxtəlif regionlarında pasiyentlərə xidmət göstərir. 2012-ci ildən etibarən isə klinika tərəfindən Azərbaycanın bir çox ali və orta təhsil ocaqlarında mütəmadi olaraq oftalmoloji müayinələr aparılır. Bununla yanaşı 2018-ci ildən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Qatarı fəaliyyətə başlayıb.

# Vyetnamda Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmiş ibtidai məktəbin açılışı olub














Vyetnamın Ha Giang əyalətinin Giap Trung qəsəbəsində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş ibtidai məktəbin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı səfiri Anar İmanov və Ha Giang əyaləti Xalq Komitəsi Sədrinin müavini Tran Duc Quy, həmçinin əyalət rəsmiləri, məktəbin müəllim-şagird heyəti və qəsəbə icmasının digər nümayəndələri iştirak ediblər.

Səfir A.İmanov çıxışında Azərbaycan ilə Vyetnam arasında tarixən yaxın əlaqələrin mövcudluğunu xüsusi vurğulayaraq sözügedən məktəbin inşasının Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürü olduğunu bildirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş bu layihənin qəsəbədə yaşayan uşaqların təhsil almaq imkanlarını əhəmiyyətli dərəcədə artıracağını bildirən səfir fond tərəfindən indiyə qədər Azərbaycanda və Azərbaycana yaxın olan bir sıra dost ölkələrdə çoxlu sayda sosialyönümlü layihənin həyata keçirildiyini vurğulayıb. Səfir Azərbaycan ilə Vyetnam arasında ənənəvi dostluq əlaqələrinin bundan sonra da möhkəmlənib inkişaf edəcəyinə əminliyini ifadə edərək Heydər Əliyev Fondu haqqında dolğun məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tran Duc Quy çıxışında Vyetnam üçün son dərəcə çətin müharibə vaxtında və müharibədən sonrakı zamanda ölkəsini güclü dəstəkləyənlər arasında Azərbaycan xalqının da olduğunu məmnunluqla bildirib. O, Ha Giang əyalətinin ucqar dağlıq ərazisindəki qəsəbədə ibtidai məktəbin inşa edilməsinə görə Heydər Əliyev Fondunun timsalında bütün Azərbaycan xalqına dərin təşəkkürünü ifadə edib. Tran Duc Quy deyib ki, tədris şəraitinin yaxşılaşdırılması ilə məktəbin şagirdləri yeni imkanlardan daha səmərəli şəkildə istifadə edərək Ha Giang əyalətinin layiqli nümayəndələri olacaqlar. Eyni zamanda, o, şagirdlərin yaradılmış bu şəraitdən tam şəkildə bəhrələnərək Azərbaycanın ali təhsil ocaqlarında təhsillərinin davam etdirilməsi imkanının əldə olunması üçün xarici dilləri də öyrənəcəklərini bildirib.

Tədbir şagirdlərin hazırladığı konsert proqramı ilə davam etdirilib.

# Vətəndaş məmnunluğuna və şəffaflığa nail olmaq başlıca məqsədə çevrilməlidir





"Bu ilin ötən dövrünü Prezident İlham Əliyevin əmək, məşğulluq, sosial təminat sistemi ilə bağlı tapşırıqlarına uyğun olaraq bu sahədə əhaliyə xidmətlərin innovativ əsaslar və vahid platforma üzərində, açıq iş şəraitini nəzərdə tutan tam şəffaf yeni modelin qurulmasına yönələn köklü islahatlara keçid mərhələsi kimi xarakterizə etmək olar".

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bu sözləri nazirlikdə doqquz ayın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasında söyləyib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əmək və sosial müdafiə sahəsi ilə bağlı müəyyən etdiyi vəzifələr və tapşırıqlar diqqətə çatdırılıb.

S.Babayev bildirib ki, iclasda dövlətimizin başçısı sosial sahədə ciddi islahatlar aparıldığını qeyd edib: "Nazirliyin yeni rəhbərliyinə mənim tərəfimdən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin. Bu mühüm tapşırığın yüksək səviyyədə icrası istiqamətində nazirlik tərəfindən bütün səylər səfərbər olunub, mövcud resurslardan da istifadə olunmaqla ən müasir innovasiyaların geniş tətbiqi şəraitində konkret addımlar atılır".

Nazir diqqətə çatdırıb ki, Prezidentin 9 avqust 2018-ci il tarixli Fərmanına uyğun olaraq nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və mərkəzlərinin, eyni zamanda, 5 sentyabr 2018-ci il tarixli Fərmanla "e-sosial" internet portalının yaradılması üçün artıq bir çox mühüm işlər görülüb. Aidiyyəti hüquqi bazanın formalaşdırılması üçün normativ hüquqi aktların layihələri və təkliflər, DOST layihəsinin fəaliyyət strukturu, konsepsiyası, operativ iş rejiminin modeli, proseslərin icra mexanizmi, yol xəritəsi, elektron formada xidmətlər üzrə pasport nümunələri və s. hazırlanıb. Yeni əsasda "bir pəncərə"dən nazirlik üzrə 124 növdə şəffaf və çevik xidmətlərin göstərilməsi ilə bağlı praktik iş mexanizmləri müəyyən olunub.

Özünüməşğulluq proqramı üzrə işlərin normal qaydada davam etdirildiyini vurğulayan nazir bu il proqram çərçivəsində 7 minədək şəxsin kiçik ailə təsərrüfatlarının yaradılmasının nəzərdə tutulduğunu və artıq prosesə başlandığını qeyd edib. Nazir həmçinin Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə 125 ailə üçün bağçılıq təsərrüfatının yaradılmasına başlanıldığını da bildirib. Qeyd edilib ki, özünüməşğulluq proqramının icrasında ilk növbədə şəffaflığın təmin olunması və proqrama daha çox sosial cəhətdən həssas qruplara aid insanların cəlb olunması diqqət mərkəzində saxlanılır. Eyni zamanda, əsas məqsəd aztəminatlı ailələrin özünüməşğulluq proqramı vasitəsilə sosial yardım proqramından asılılığını aradan qaldırmaq və onların kiçik sahibkarlığa çıxışına imkan yaratmaqdır.

S.Babayev dövlət başçısının müvafiq fərmanına əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi üçün informasiya texnologiyaları əsasında tam şəffaf iş mexanizminin hazırlandığını, ödəmələrin verilməsi prosesinin ədalətli icrasının təmin ediləcəyini deyib. Nazir bildirib ki, bu il mayın əvvəlindən nazirliyin ayrı-ayrı fəaliyyət sahələri üzrə yaradılan işçi qrupları tərəfindən hazırlanan təkliflər əsasında sosial yardım, əlilliyin qiymətləndirilməsi və reabilitasiya sistemlərinin, məşğulluq xidmətlərinin təkmilləşdirilməsi, bu sahələrdə müasir və şəffaf xidmətlər şəbəkəsinin qurulması üçün müvafiq işlər aparılır.

İclasda nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru Zakir Babayev, Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elman Cəfərov, Dövlət Məşğulluq Xidmətinin rəisi Anar Bədəlbəyli, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəis müavini Gulnarə Hacıyeva hesabat məruzələri ilə çıxış ediblər.

Çıxışlar zamanı bu ilin doqquz ayında ölkəmizdə pensiyaların orta aylıq məbləğində ötən ilin müvafiq dövrünə nisbətən 8,4 faiz, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləğində 9 faiz artım qeydə alındığı, pensiyaların maliyyələşməsinə 7,6 faiz çox vəsait yönəldildiyi, DSMF-nin gəlirlərində 16,07 faiz, o cümlədən məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda 10,33 faiz, qeyri-büdcə sektoru üzrə 9 faizə yaxın artımın olduğu diqqətə çatdırılıb. Bu il oktyabrın 1-nə orta hesabla 50,2 min ailənin (200,2 min nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin edildiyi, hər ailəyə ayda orta hesabla 165,4 manat yardım ödənildiyi qeyd olunub.

Bildirilib ki, hesabat dövründə 265 nəfər müharibə əlilinə minik avtomobili verilib, Qarabağ müharibəsi əlilləri və şəhid ailələrindən 35 nəfəri mənzillə təmin olunub və ilin sonunadək bu göstərici 500 nəfərə çatacaq. İmtiyazlı şəxslərə 5054 ədəd sanator-kurort putyovkası (yollayış) və istirahət mərkəzlərinə göndəriş təqdim olunub. Nazirliyin məşğulluq orqanları tərəfindən 44,8 min nəfər münasib işlərlə, 865 nəfər ödənişli ictimai işlərlə təmin edilib, 79,7 min nəfər gəncə peşəyönümü məsləhətləri verilib. Ümumilikdə nazirliyin xətti ilə 2075 nəfər peşə hazırlığına cəlb olunub, 1723 nəfərə işsizliyə görə sığorta ödənişi təyin edilib. Elektron sistemdə qeydiyyata alınmış əmək müqavilələrinin sayında 59,3 min artım qeydə alınıb. Əmək hüquqlarının müdafiəsi üçün Dövlət Əmək Müfəttişliyi Xidmətinə daxil olan bütün müraciətlərin (4,4 min ərizə) obyektiv araşdırılmaqla, nəticəsinə uyğun tədbirlər görülüb, aşkar edilmiş hüquq pozuntularının aradan qaldırılması üçün qanunauyğun tədbirlər görülüb. O cümlədən işəgötürənlər tərəfindən 105,7 min manat məbləğində gecikdirilmiş sosial xarakterli ödənişlərin işçilərə ödənilməsi, işdən qeyri-qanuni azad olunmuş 7 nəfərin yenidən işinə bərpa edilməsi təmin olunub.

İclasda digər fəaliyyət istiqamətlərində aparılan işlərin nəticələri və qarşıda duran vəzifələr ətraflı müzakirə olunmaqla, fəaliyyət sahələrində yol verilən ayrı-ayrı nöqsan və çatışmazlıqlar diqqətə çatdırılıb. S.Babayev fəaliyyət sahələrində aparılan islahatlar və görülən işlərlə bağlı aidiyyəti üzrə tapşırıqlar verib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.

Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq, kənd təsərrüfatı naziri İnam Kərimov oktyabrın 19-da Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Lənkəran, Astara, Cəlilabad, Masallı, Lerik, Yardımlı və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub.

Nazir İnam Kərimov "Səyyar Xidmət" Qrupunun işi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

* * *

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov oktyabrın 19-da Quba şəhərində şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.

Komitənin struktur bölmə rəhbərlərinin də iştirak etdiyi qəbulda Quba, Qusar, Xaçmaz və Şabrandan olan vətəndaşların müraciətləri əsasən, daşınmaz əmlakın qeydiyyatı, mülkiyyət hüququnun əldə edilməsi qaydası, torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları ilə bağlı olub. Həmçinin vaxtı ilə verilmiş pay torpaqları ilə bağlı faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması, dövlət əmlakının özəlləşdirilməsi də vətəndaşları maraqlandıran məsələlər sırasında yer alıb.

Qəbulda səsləndirilən vətəndaş müraciətlərini diqqətlə dinləyən komitə sədri bir sıra məsələlərin qanunvericilik çərçivəsində dərhal həll olunması üçün göstərişlərini verib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara göndəriləcək. Vətəndaşların ünvanladığı bəzi araşdırılma tələb edən müraciətlər isə qeydiyyata alınıb.

***AZƏRTAC***

# "Şahdəniz" yatağından bu vaxtadək 96,5 milyard kubmetr qaz çıxarılıb



İndiyədək Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından 96,5 milyard kubmetr təbii qaz hasil edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə "BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli Bakıda keçirilən III Avrasiya Konfransında deyib.

Bəxtiyar Aslanbəyli bildirib ki, BP və tərəfdaşları bu vaxtadək Azərbaycandakı layihələrə 70 milyard dollardan çox sərmayə yatırıb.


## Azərbaycan Dövlət Pedaqoji Universiteti

*açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

LOT -1. "Digər maşın və avadanlıqlar
LOT -2. Mühafizə xərcləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Üzeyir Hacıbəyli 68 (Əlaqələndirici şəxs: Ümid Mehdiyev, telefon: (+99412) 493-00-26) ünvanından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfdən açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (Başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İştirak haqqı LOTlar üzrə aşağıdakı məbləğdə təşkil edir:

**LOT -1. 200 manat;**
**LOT -2. 200 manat.**

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**VÖEN: 1700495231**
**Hesab: AZ92AIIB38090019441105141104**
**Bankın adı: Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
**VÖEN: 9900003611**
**Kod: 200048**
**Müxbir hesab:AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 noyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 dekabr 2018-ci il saat 17:00-a qədər Üzeyir Hacıbəyli 68 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 04 dekabr 2018-ci il saat 10:00-da Üzeyir Hacıbəyli 68 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 6 medal

Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunları başa çatmışdır. Oktyabrın 6-18-də keçirilmiş Olimpiadanın bağlanış mərasimində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax çıxış edərək idman tədbirini fantastik turnir kimi qiymətləndirmiş, iştirakçı idmançılara, Oyunlara evsahibliyi etmiş ölkəyə, könüllülərə və idman bayramını gerçəkləşdirənlərin hamısına təşəkkürünü bildirmişdir. Ənənəvi olaraq Olimpiya bayrağı Oyunların növbəti paytaxtına - Dakara (Seneqal) təqdim edildi.


Vüqar Talıbov


Turan Bayramov


Tərmenxan Babayev

Olimpiadada 17 idmançıdan ibarət Azərbaycan milli komandası yarışlarda 6 medal (2 qızıl, 1 gümüş, 3 bürünc) qazanmışdır. Cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) Oyunların çempionu olmuşlar. Ağır atlet Tərmenxan Babayev (85 kq) ölkəmizin aktivinə Olimpiadanın gümüş medalını yazdırmışdır. Milli komandamızın bürünc medallarını isə taekvondoçu Cavad Ağayev (63 kq), güləşçi Şahanə Nəzərova (43 kq) və boksçu Nurlan Səfərov (60 kq) qazanmışlar.

Başqa bir təmsilçimiz - bədii gimnast Yelizaveta Luzan Olimpiadada qarışıq komandanın tərkibində çıxış etmiş və qızıl medalın sahibi olmuşdur. Lakin BOK-un qərarına uyğun olaraq, bu medal milli komandamızın hesabına yazılmamış və qarışıq komandaların aktivinə əlavə edilmişdir.


Cavad Ağayev


Şahanə Nəzərova


Nurlan Səfərov


Yelizaveta Luzan

Olimpiadanın yarışlarında 241 dəst medal uğrunda 206 ölkədən təxminən 4 min idmançı mübarizə aparmışdır. Turnirin medal sıralanmasında Rusiya milli komandası birinci yerə çıxmışdır. Bu ölkənin atletləri 59 medal (29 qızıl, 18 gümüş, 12 bürünc) qazanmışlar. Çin 36 medalla (18 qızıl, 9 gümüş, 9 bürünc) ikinci, Yaponiya 39 medalla (15 qızıl, 12 gümüş,12 bürünc) üçüncü yerləri tutmuşdur.

Azərbaycan milli komandası isə Olimpiadanın medal sıralamasında Norveçlə 34-35-ci yeri bölüşmüşdür. İstər-istəməz sual olunur: idmançılarımızın Buenos-Ayresdə göstərdikləri nəticələri necə qiymətləndirməli? Əvvəlki iki Olimpiadada əldə olunmuş nəticələrlə müqayisədə bu, geriləmə deyilmi?

Xatırladaq ki, Yeniyetmələrin I Yay Olimpiya Oyunlarında (Sinqapur, 2010) idmançılarımız 8 medal (5 qızıl, 3 gümüş) qazanaraq medal sıralamasında 11-ci yeri tutmuşdur. Dörd ildən sonra Azərbaycan milli komandası Çinin Nankin şəhərində II Olimpiadada 12 medalla (5 qızıl, 5 gümüş, 1 bürünc) 10-cu yerə çıxmışdır.

Göründüyü kimi, idmançılaımız üç Olimpiadada həm medalların əyarına və sayına görə, həm də medal sıralamasında fərqli nəticələr göstərmişlər. Elə buna görə ilk baxışdan belə bir təəssürat yarana bilər ki, yeniyetmə atletlərimiz III Yay Olimpiya Oyunlarında idmanseverlərin ümidlərini doğrultmamışlar. Lakin bu, yalnız ilk baxışdan belədir. Birmənalı şəkildə vurğulamaq lazımdır ki, azərbaycanlı atletlər Sinqapur və Nankində nə az, nə çox - sensasiyalı nəticələrə imza atıb gözləntiləri xeyli üstələmişdilər. Sensasiya ona görə sensasiyadır ki, sonsuzluğadək davam etmir. Özü də medalllların sayı və medal sıralaması heç də həmişə bu və ya digər ölkənin idman potensialını əks etdirmir. Yoxsa III Olimpiadada Rusiya, Çin və Yaponiyanın ardınca Macarıstan kimi kiçik ölkə yox, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Braziliya... gələrdi.

Hər bir Olimpiadada yeni idmançı nəsli təmsil olunur. Hər yeni nəslin əvvəlki nəslin uğurunu təkrarlayacağını gözləmək yersizdir. Onu da nəzərdən qaçırmaq olmaz ki, Argentinanın paytaxtında 206 ölkənin yalnız 93-ü medal qazana bilmişdir və medallı ölkələrdən biri də Azərbaycandır. Odur ki, idmançılarımızın Buenos-Ayres Olimpiadasında əldə etdikləri nəticələri normal qarşılamaq lazımdır. Argentinada ölkəmizi təmsil etmiş yeniyetmə atletləri təbrik edir, onlara qarşıdakı yarışlarda uğurlar arzulayırıq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın ilk ornitoloq qadını

Respublikamızda dağ-meşə qoruqları arasında Zaqatala qoruğu xüsusilə seçilir. Böyük Qafqazın cənub yamacında, Balakən və Zaqatala rayonlarının ərazisində yerləşən bu qoruq 89 il əvvəl yaradılıb və 28 min 312 hektar sahəni əhatə edir. 2008-ci ildə Nazirlər Kabinetinin sərəncamına əsasən, Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisi artırılaraq 47 min 349 hektara çatdırılıb. Qoruq hazırda beynəlxalq səviyyədə xüsusi mühafizə olunan təbiət ərazilərinin əsas hissəsindən biri hesab edilir. Mühafizənin etibarlı şəkildə təşkili üçün onun ərazisi şərti olaraq 7 sahəyə bölünüb. Bunlar Car, Katex, Axkimal, Çayqarışan, Gərəkli, Qaraçay və Mazımqara sahələridir.



Qoruqda elmi və mühafizə şöbələri fəaliyyət göstərir. Aparılan elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq konfransların materiallarında, Azərbaycan Milli Elmlər Akademiyasının elmi məcmuələri və əsərlərində, broşürlərdə, qəzet və jurnallarda dərc olunur.

Burada ixtisasını ürəkdən sevən, təcrübəli və işinə məsuliyyətlə yanaşan alimlər arasında Raya Mustafayeva da var. O, 1938-ci ildə Şahdağın ətəklərində yerləşən Qusar rayonunun Xuluq kəndində anadan olub. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə (indi BDU) daxil olub. Biologiya fakültəsində təhsil alıb və bu elm ocağını fərqlənmə diplomu ilə bitirib. Universitetin son kursunda tale onu tələbəlik illərində istehsalat təcrübəsində olduğu Zaqatala rayonunun füsunkar təbiəti və zəngin tarixi olan Car kəndinə aparıb.

Raya Mustafayeva ali təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra AMEA-nın Zoologiya İnstitutunun aspiranturasına daxil olur, "Şərqi Zaqafqaziya (Azərbaycan) şəraitində qaratoyuqların ekologiyası" mövzusunun təsdiqi üçün Türkmənistan Respublikasının Aşqabad şəhərinə gedir, mövzu bəyənilir və həmin ölkənin Elmlər Akademiyasının həqiqi üzvü Ə.G.Rüstəmov gənc tədqiqatçının elmi rəhbəri təyin edilir.

Qadın üçün olduqca çətin və nadir ixtisaslardan olan ornitologiya elmi yüksək həssaslıq və işgüzarlıq tələb edir. Səhər tezdən təbiət yuxudan oyanmamış müşahidələrə başlamaq, at cığırları ilə gəzərək quşları müşahidə etmək, təbiəti duymaq gərəkdir. Gənc tədqiqatçının təbiətə olan sevgisi hər bir çətinliyə üstün gəlir. O, 1967-ci ildə elmi işini başa çatdıraraq dissertasiya müdafiə edib biologiya elmləri namizədi dərəcəsinə layiq görülüb.

Raya Mustafayeva 1959-cu ilin avqustunda Zaqatala Dövlət Təbiət Qoruğuna işə qəbul edilib və ornitoloq alim bundan sonrakı yaradıcı fəaliyyətini qoruğun inkişafına həsr edib. Burada böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışıb. Son 19 ildir ki, direktorun elmi işlər üzrə müavini vəzifəsində işləyir.

Tədqiqatçı-alim Raya Mustafayevanın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1979-cu ildə Zaqatala Dövlət Təbiət Qoruğunun 50 illiyi ilə əlaqədar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Təbiəti mühafizə işində xidmətlərinə görə" fəxri fərmanı ilə təltif olunub.

23 may 2008-ci ildə Ekologiya İşçilərinin Peşə Bayramı Günü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, 2009-cu ildə isə Zaqatala qoruğunun 80 illiyi şərəfinə rayon icra hakimiyyəti başçısının fəxri fərmanları ilə təltif edilib.

Respublikamızın ilk ornitoloq qadını əmək fəaliyyətinin 30 ilini yüksək dağ ekosistemində az öyrənilmiş nadir quş növlərinin ekologiyasının izlənilməsinə sərf edib.

Raya Mustafayeva Moskvada nəşr edilmiş "Zaqatala qoruğu" kitabının müəlliflərindən biridir. Məqalələri AMEA-nın Zoologiya İnstitutunun "Elmi əsərləri" və "Azərbaycan qoruqlarının əsərləri" məcmuələrində dəfələrlə dərc edilib. Son illər nəşr olunan "Zaqatala qoruğunda sərçə kimi quşların qidasına dair materiallar", Rusiya Federasiyasının Nalçik şəhərində "Nəcib Qafqaz maralının qorunması" adlı məqaləsi, "Zaqatala qoruğunun maralları", "Zaqatala qoruğunun cütdırnaqlı heyvanlarının sistematikası və sayğı metodikası", üç dildə tərtib edilmiş "Zaqatala Dövlət Təbiət qoruğu" (2009), "Zaqatala qoruğunun Köpkəri" (2011), "Zaqatala qoruğunun ayıları" (2018) kitablarının və Azərbaycanın faunasına dair 30-a qədər elmi əsərin müəllifidir.

Tədqiqatçı-alim 2001-2008-ci ildə AMEA Zoologiya İnstitutunun Dissertasiya Şurasının üzvü olub. 1986-cı ildən Azərbaycan Ornitoloji Cəmiyyətinin üzvüdür. Dəfələrlə Moskva, Sankt-Peterburq və Aşqabad şəhərlərində keçirilən ornitoloji konfranslarda iştirak və çıxışlar edib.

Azərbaycanın ilk ornitoloq qadını həm də gözəl ailə sahibidir, dörd övlad anasıdır. İki qızının fəlsəfə doktoru olması ilə də fəxr edir. Ömrünün bu çağında Raya Mustafayeva cavan kadrlara örnək olacaq qədər məsuliyyətli, intizamlı, işgüzar, dəqiq və tükənməz elmi həvəsə malikdir. Zaqatalalılar onu rayonun fəxri hesab edirlər.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Hər ailənin öz həkimi

## Azərbaycanda ailə həkimi institutunun formalaşması üçün baza mövcud olsa da, bu sahədə hələ ki irəliləyiş yoxdur

***Əvvəli 1-ci səh.***

Bəs, görəsən, bu həkimin üstünlükləri nədən ibarətdir və bu proses necə həyata keçiriləcək? Apardığımız araşdırmada bu suallara aydınlıq gətirməyə çalışmışıq.

Azərbaycan Tibb Universitetinin Ailə təbabəti kafedrasının müdiri, professor Mustafa Salihov bildirir ki, səhiyyədə ailə həkimi institutunun rolunun gücləndirilməsinə və bu məqsədlə müvafiq qanunun qəbul edilməsinə xüsusi ehtiyac var: "Artıq Azərbaycanda da ailə həkimi təcrübəsinə başlamağın vaxtı yetişib. Ailə həkimi ixtisası üzrə rezidenturaya qəbul olanlar ümumilikdə 12-13 istiqamətdə ixtisaslaşacaqlar: kardiologiyadan pediatriyaya qədər... Endokrinologiya, revmatologiya, qastroenterologiya və digər istiqamətlər də bura daxil olacaq. Hər bir ailənin öz etibarlı həkimi olmalıdır. Ailə arasında olan bütün genetik xəstəlikləri, allergiya, pis vərdişləri biləndən sonra həkimlərin müayinə və müalicə işi rahatlaşacaq, xəstəliklərin isə miqdarı azalacaq. Ailə həkimini ailə özü seçməlidir. Ailə ona hansı həkimin xidmət göstərəcəyini bilməlidir. Həkim ailəyə o qədər yaxın olmalıdır ki, soyuducunu da açıb, ailənin sağlam qidalanıb, qidalanmadığını yoxlasın".

### Məhdud ixtisaslı həkimlərin sayı azalacaq

Mustafa Salihov deyir ki, ailə həkiminin üstünlüyü ailənin sağlamlığı ilə bağlı bütün məlumatları, hətta sirləri bilməsindədir: "Bütün hallarda birinci sözü, məsləhəti ailə həkimi deməlidir. Bu həkim xəstənin də işini asanlaşdıracaq. Həkim pasiyentinin hər narahatlığını biləndən sonra onun hansı dərmanı qəbul edib-etməyəcəyini yaxşı biləcək. Nəticədə məhdud ixtisaslı həkimlərin sayı azalacaq, səhiyyənin gələcəyi parlaq olacaq. Ailə həkiminin hər xəstəliyin müalicəsini bilməsi də qeyri-mümkündür. Ancaq o, xəstəni ilk müayinə vaxtı problemin nə olduğunu təxmin etməli və lazım gəldikdə digər mütəxəssislərlə də məsləhətləşməlidir. Bu üstünlüklərinə görə ailə həkiminin maaşı nisbətən yüksək olmalıdır".

### İlkin Səhiyyə Xidməti tibbin əsas və başlanğıc nöqtəsidir

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Səhiyyə departamentinin səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova bildirdi ki, İlkin Səhiyyə Xidməti və ailə həkimi institutu ümumi səhiyyə sisteminin əsas və başlanğıc nöqtəsidir.

O, pasiyentlərin ilk müraciət etdiyi tibbi xidmət pilləsi olub əlçatanlıq, bərabərlik prinsiplərinə əsaslanan, davamlı və ilkin tibbi-sanitar xidmətləri özündə birləşdirən səhiyyə sisteminin mühüm tərkib hissəsidir.

Şərafət İsmayılovanın sözlərinə görə, səhiyyənin inkişafı sahəsində qabaqcıl təcrübəyə malik olan ölkələrdə səhiyyə sisteminin səmərəli fəaliyyətinin əsas hissəsini məhz İlkin Səhiyyə Xidmətinin inkişafı təşkil edir: "İlkin Səhiyyə Xidməti mükəmməl bir model kimi 1978-ci ildə Alma-Atada (Qazaxıstan) keçirilən Beynəlxalq Konfransdan sonra təbliğ olunmağa başlanıb. Konfrans çərçivəsində qəbul olunmuş "Alma-Ata deklarasiyası" Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) "Hamı üçün sağlamlıq" adlı qlobal strategiyasının əsas konsepsiyasına çevrilib. İSX-nin əsas üstünlüyü ondan ibarətdir ki, tibb müəssisələrinin və tibbi xidmətlərin insanlara əlçatanlığı təmin olunmaqla yanaşı xəstəliklərin erkən aşkarlanması və vaxtında müalicəyə cəlb edilməsi, həmçinin geniş profilaktik tədbirlərin bilavasitə ailəyə yaxın olan həkim - ailə həkimi tərəfindən göstərilir".

### Ailə həkiminin əsas vəzifələri nədir?

Ailə həkiminin əsas vəzifələrini sadalayan Şərafət İsmayılovanın fikrincə, bunlara insanları xəstələnməmək üçün profilaktik və müəyyən xəstəliklərin qarşısını ala biləcək tədbirlər (siqaret çəkməmək, fiziki aktivliklə məşğul olmaq, düzgün qidalanmaq) görməyə sövq etmək, xəstəliklərin erkən aşkarlanması məqsədilə müayinələr aparmaq və müalicəni sübutlu təbabət prinsiplərinə əsasən təşkil etmək, xəstəliklər və onlarla mübarizə yolları haqqında pasiyentləri məlumatlandırmaq, müalicəyə nəzarəti təşkil etmək, sağlamlıq vəziyyətindən asılı olaraq pasiyentlərə zəruri məsləhətlər vermək daxildir.

Onun sözlərinə görə, ailə həkimi sistemi bir çox ölkələrdə inkişaf etsə də, Azərbaycan üçün yeni tibb sahəsidir: "Dünya təcrübəsinə nəzər salaq. Məsələn, Fransada İlkin Səhiyyə Xidmətində fəaliyyət göstərən ailə həkimi zərurət yarandıqda kiçik cərrahi müdaxilələri belə edir. Bunun üçün təbii ki, ailə həkimləri mütəmadi olaraq təlimlərdən keçirlər. Latviyada ailə həkimləri xərçəng tipli ağır xəstəliklərə düçar olmuş və palliativ yardıma ehtiyacı olan xəstələrin müşahidəsini aparır və müvafiq tibbi yardımı göstərirlər. Estoniyada isə ailə həkimi ilə yanaşı tibb bacısının bilik və bacarıq səviyyəsinin artırılması istiqamətində fəaliyyətlər həyata keçirilir. Müəyyən yerlərdə tibb bacısının müstəqil şəkildə fəaliyyət göstərməsinə də rast gəlinir. Bununla yanaşı, Estoniyada vətəndaşlara ailə həkimi xidmətinin 24 saat göstərilməsi məqsədi ilə onların növbəli şəkildə fəaliyyəti təmin edilib. Belə yanaşma xüsusilə xroniki xəstələrin izlənilməsində böyük əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, bu təcrübə Danimarka, İngiltərə, Hollandiya kimi ölkələrdə də geniş yayılıb".



### İcbari Tibbi Sığortanın tətbiqini bu həkimlərsiz təsəvvür etmək çətindir

Müsahibimiz qeyd edir ki, İlkin Səhiyyə Xidməti tibb sisteminin əsas aparıcı qüvvəsi olduğundan və səhiyyə xərclərinin səmərəsinin artırılmasında xüsusi yer tutduğundan onun inkişafı olmadan İcbari Tibbi Sığortanın tətbiqini təsəvvür etmək çətindir: "Hazırda Azərbaycanda yaşayan vətəndaşların və onlara bərabər tutulan şəxslərin gəlirlərindən və faktiki yaşayış yerindən asılı olmayaraq, keyfiyyətli, ödənişsiz və əlçatan ilkin tibbi-sanitar xidmətlərlə təmin edilməsi istiqamətində işlər görülür".

Ailə həkimi institutunun səhiyyə sistemi çərçivəsində rolunun artırılması, pasiyent yönümlü yanaşmanın tətbiq olunması, ilkin səhiyyə müəssisələrinin maddi-texniki bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, əhalinin tibb müəssisəsinə təhkim olunması sisteminin yaradılması (ailələrin öz səhhətləri ilə bağlı bütün məsələləri həll edə biləcək ailə həkiminə təhkimi nəzərdə tutulur), xəstəliklərin profilaktikasında ailə həkimi institutunun rolunun artırılması və səhiyyə xərclərinin rasional istifadəsinin təmin edilməsi ümumilikdə ailə həkimi institutunun inkişaf perspektivləri kimi qiymətləndirilir.

Bu prinsiplərin həyata keçirilməsi üçün ailə həkimi ixtisasının tədris metodologiyasının və təcrübəsinin daha da təkmilləşdirilməsinə zərurət yaranır. Təbii ki, müvafiq tədris planı və dərs vəsaitlərinin beynəlxalq təcrübəyə əsaslanaraq tərtib olunmasına, ixtisasartırma istiqamətində mübadilə proqramlarının həyata keçirilməsinə ehtiyac duyulur.

İcbari tibbi sığorta çərçivəsində ailə həkimi institutunun fəaliyyəti barədə danışan Şərafət İsmayılovanın sözlərinə görə, əhalinin sağlamlığının qorunmasında böyük rol oynayan İlkin Səhiyyə Xidməti səhiyyə xərclərinin səmərəsinin artırılması üçün beynəlxalq təcrübəyə əsaslanan, effektivliyi sübut olunmuş strategiyadır. Bu səbəbdən də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilkin səhiyyə xidmətinin inkişafında çox maraqlıdır.

Səhiyyə sisteminin yeni iqtisadi əsaslarının yaradılması, əhalinin səhiyyə ilə bağlı ehtiyac və tələblərinin ödənilməsi məqsədilə tətbiq olunan icbari tibbi sığorta əhali arasında xəstəliklərin profilaktikası, erkən aşkarlanması, mümkün qədər tez müalicəyə cəlb edilməsi və səhiyyə xərclərinin səmərəli istifadəsi deməkdir. İlkin Səhiyyə Xidmətinin təşkili ilə xəstəliklərin ağırlaşaraq müalicə üçün maliyyə baxımından daha çox vəsait tələb etməsi azalmış olur ki, bu da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üçün xüsusi əhəmiyyət daşıyır.

### Məqsəd əhalinin sağlamlığının qorunmasında dövlət təminatına nail olmaqdır

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Məlahət İbrahimqızı bizimlə söhbətində bu gün ölkəmizdə tibb sahəsində ciddi islahatların getdiyini vurğulayaraq artıq Azərbaycanda beynəlxalq standartlara cavab verən səhiyyə infrastrukturunun yaradıldığını qeyd etdi.

Onun sözlərinə görə, bu islahatların bir hədəfi var, o da ölkə əhalisinin sağlamlığının qorunmasında dövlət təminatına nail olmaqdır: "Əhalinin sağlamlığını həyata keçirən ən yüksək dövlət siyasətindən biri İcbari tibbi sığortanın tətbiqidir. Artıq Türkiyə, bir sıra Avropa ölkələrində bu təcrübədən istifadə edilir. Bizdə də üç rayonda pilot layihə kimi həyata keçirilir. Parlamentə həmin rayonlardan artıq şikayət gəlmir və bu, əhali məmnunluğunun göstəricisidir. Qarşıdakı dövrdə bütün əhalinin sağlamlığını qorumaq üçün bundan geniş miqyasda istifadə oluna bilər".

### Ailə həkimi institutunun yaradılmasının hüquqi əsasları var

Azərbaycanda səhiyyə ilə bağlı çox zəngin qanunvericilik bazası olduğunu deyən Məlahət İbrahimqızı ancaq bunun təkmilləşdirilməyə ehtiyacı olduğunu vurğuladı. Deputatın sözlərinə görə, Milli Məclisin payız sessiyasında "İcbari tibbi sığorta haqqında" qanun layihəsi yenidən işlənəcək: "Düşünürəm ki, layihənin daha yüksək səviyyədə həyata keçirilməsi üçün ailə həkiminin olması müsbət nəticələr verə bilər. Ailə həkimi institutunun yaradılması üçün mükəmməl baza var. Uzun illər Azərbaycanda səhiyyə xidməti poliklinikalarda sahə həkimləri tərəfindən həyata keçirilib. Sahə həkimi institutu ailə həkiminin bir təməlidir. Ailə həkimi daha təkmil, müasir və çevikdir. Önümüzdəki illərdə bu islahatlar çərçivəsində ailə həkimi institutunun tətbiqi zəruri olacaq. Bu səbəbdən də mövcud qanunvericilik barədə hansısa maddə əlavə edilməsi, ya düzəlişlərin verilməsi doğru olar. Qanun layihəsi hazırlandığı halda işçi qrup yaradılacaq, beynəlxalq təcrübə nəzərə alınacaq. Əhali məmnunluğunun, səhiyyə xidmətinin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün bu proses vacibdir".

*Dünyanın əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində mövcud olan bu sistem insanların sağlamlığına, daha xoşbəxt yaşamına müsbət təsir göstərir. Azərbaycanda ailə həkimi institutunun yaradılması üçün baza mövcuddur. Bircə qalır onun reallaşdırılması. İnanırıq ki, tezliklə Azərbaycanda da hər bir ailənin öz həkimi olacaq...*

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Energetika Nazirliyi

## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

"Energetika sektorunda bazar münasibətlərinin və bazar subyektlərinin formalaşdırılmasına yönəldilmiş hərtərəfli islahatların aparılmasına dair qanunvericilik bazasının hazırlanması" işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsindəki ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Gülnarə Nuriyeva (telefon: 598-16-53/54 (daxili 1130), mob: +994 50 450 20 85)

İştirak haqqı 1100,00 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:** Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005,
VÖEN:1401555071
M/h: AZ41NABZ01360100000000003944
SWİFT :CTREAZ22
Alan: Energetika Nazirliyi
VÖEN: 1300087531
Hesab№: AZ44CTRE00000000000002218301

**Təyinatı mütləq yazılmalıdır!**

**Təyinatı:** Tenderdə iştirak haqqı
Energetika Nazirliyi
XHK 2218301
Büdcə səviyyəsinin kodu: 7
İqtisadi təsnifat: 142340

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 5 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
8. İddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) hüquqlarını, ixtisaslarını və ixtisas göstəricilərini təsdiq edən sənədlər;
9. İddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) işçi heyətinə (mütəxəssislər, ekspertlər) daxil olacaq mütəxəssislərin peşəkarlığını və təcrübəsini təsdiq edən sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23.11.2018-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 06.12.2018-ci il saat 11:00-a qədər Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsindəki ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07.12.2018-ci il saat 15:00-da Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsindəki ofisində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ

## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1** - Göyçay şəhərində çoxmənzilli binaların dam örtüklərinin təmiri işlərinin görülməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 (Əlaqələndirici şəxs: Kərimov Kamran İlqar oğlu, telefon: (051) 408-76-76) ünvanından ala bilərlər.

İştirak haqqı

**LOT 1** (bir yüz) - 100 manat

**Hesab:** **AZ39CTRE00000000000002511331**
**VÖEN** **6000043011**
**Bank:** **Kapital Bank ASC Göyçay filialı**
**Kod:** **200792**
**VÖEN:** **9900003611**
**M/H: AZ37NABZO1350100000000001944**
**S.W.İ.F.T:** **BİK AİİBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 noyabr 2018-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **6 dekabr 2018-ci il saat 17:00-a** qədər Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **7 dekabr 2018-ci il saat 10:00-da** M.Ə.Rəsulzadə küçəsi, 130 ünvanında yerləşən Göyçay Rayon İcra Hakimiyyətinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin qərarı ilə "İpək Yolu Sığorta" Açıq Səhmdar Cəmiyyətinə verilmiş 06 may 2014-cü il tarixli 080572 nömrəli və "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinə verilmiş 28 fevral 2014-cü il tarixli 080544 nömrəli təkrar sığorta lisenziyaları ləğv edilmişdir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin qərarı ilə Abbasquliyeva Fidan Radik qızına (№080685), Agayeva Nəsibə Bayram qızına (№000173), Atayev Kamran Füzuli oğluna (№ 000391), Babayev Elvin Tahir oğluna (№080689), Beybutov Kamran Fərid oğluna (№080528), Əsədov Qismət Alik oğluna (№ 080655), Kazımov Şahin Əvəzağa oğluna (№000958), Kərimov Hikmət Aydın oğluna (№000782) sığorta agenti fəaliyyəti üçün verilmiş lisenziyalar ləğv edilmişdir.

***Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyəti***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankının "Maliyyə savadlılığı" portalı (www.bizimpullar.az) üçün öyrədici animasiyaların hazırlanması işlərinin satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 21 sentyabr 2018-ci il tarixli qərarına və Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarının fasadlarının təmizlənməsinə dair xidmətlərin satın alınması, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün CDS-250 məhvedici sistemin bıçaqlarının itilənməsi işlərinin satın alınması, Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə avadanlığı üçün ehtiyat hissələrinin satın alınması, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün printer və surətçıxarma aparatı kartriclərinin satın alınması ilə bağlı kotirovka sorğuları üzrə Satınalmalar komissiyasının 03 oktyabr 2018-ci il tarixli qərarına əsasən, müvafiq olaraq 1-ci məsələ üzrə "GT SOLYUŞNZ" MMC, 2-ci məsələ üzrə "TƏMİZKOM" MMC, 3-cü məsələ üzrə "GORF" MMC, 4-cü məsələ üzrə "HALAL TS" MMC və 5-ci məsələ üzrə isə "AZTONER" MMC qalib elan edilmişdir. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Qəbələ məktəbliləri üçün təlim keçirilib

"Azercell Telekom" MMC interneti məktəblilər üçün təhlükəsiz etmək məqsədilə ölkə boyu şagirdlər, müəllimlər və valideynlər üçün "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlimlərini davam etdirir. 2018-2019-cu illərdə Bakı ilə yanaşı, regionlarda da bu faydalı təşəbbüslə çıxış etməyi hədəfləyən şirkət bu dəfə Qəbələ şəhərində 5 saylı məktəbdə 123 şagird, 26 müəllim və 21 valideynin iştirakı ilə təlim təşkil edib. Təlimlərdə şagirdlərə internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məsləhətlər, məktəbdənkənar təhdidlərin tanınması və onlarla mübarizə yolları haqqında məlumatlar verilib. Ümumillikdə təlimlər sürətli internetin və internetdən istifadə arealının genişlənməsi nəticəsində şagirdlərin üzləşə biləcəkləri çətinlikləri müəyyənləşdirmək, həmin təhlükələri aradan qaldırmaq üçün şagirdlər, valideynlər və uşaqlarla kompleks işin təşkilini əhatə edir. Məlumat üçün bildirək ki, ötən ildən başlayaraq "Azercell"in təşkilatçılığı ilə Bakının bir çox məktəblərində yüzlərlə şagird, müəllim və valideynlər üçün "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlimlər keçirilir.

Qeyd edək ki, kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə son illər cəmiyyət üçün ən aktual məsələlərdən birinə çevrildiyini nəzərə alan şirkət 2 il bundan əvvəl uşaqlar üçün internet şəbəkəsində təhlükəsizliyə yönələn "Universal Müdafiə" "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərinin də yer aldığı "Azercell Plus Təhlükəsizlik" proqramını istifadəyə verib. "Azercell Plus Təhlükəsizlik" xidmətinin üstün cəhətlərindən biri İnternetdə uşaqların təhlükəsizliyinin təmin edilməsidir. Bu proqram uşağın sosial şəbəkələrdə postlarını və dostlar siyahısındakı dəyişiklikləri izləməyə, övladların qoşulduğu qruplardan xəbərdar olmağa, uşaqların yerini müəyyənləşdirmək və onlar üçün təhlükəsiz ərazi yaratmaq imkanı verir.

***"Azərbaycan"***

# B İ L D İ R İ Ş

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC Pirallahı Sənaye Parkının 30 hektar ərazisinin mühəndis xətləri və avtomobil yolları (texniki su, su anbarı və nasosxanalar, avtomobil yolları, məişət tullantı suyu xətti, yağış suyu xətti, yanğına qarşı su xətti, içməli su xətti) üzrə tikinti işlərinin satın alınması üçün *təkliflər sorğusu keçirir*

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

**İştirak haqqı: 800 manat**
**H/h:** **AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN:** **2902478331**
**Bank:** **"PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWİFT:** **PAHAAZ22**
**M/h:** **AZ82NABZ01350100000000071944**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *Qiymət təklifi dəyərinin **1%**-i həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30** bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti;*
- *Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **30 oktyabr 2018-ci** il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 oktyabr 2018-ci il, saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan işlərin satın alınması üzrə *açıq tender elan edir*

Tender 6 (altı) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: Zakir Hacıyev telefon: 490-00-91) ala bilərlər.

LOT 1 "Bakı Metropoliteni" QSC-nin "Xətai" stansiyası üçün müxtəlif tip ehtiyat gərginlik qoşucularının və idarəetmə qutularının quraşdırılması işlərinin satınalınması.

LOT 2 "Bakı Metropoliteni" QSC-nin "Bakmil" stansiyasının inzibatı otaqlarında kondisioner sisteminin quraşdırılması.

LOT 3 "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik deposunda A-12 yarımstansiya ilə 6/0.4 kv-kuq D-1 alçaldıcı yarımstansiya arasında kabel kollektorunun tikintisi.

LOT 4 "Bakı Metropoliteni" QSC-nin "Avtovağzal-M.Əcəmi" stansiyaları ərazisində yeraltı su anbarına su xəttinin çəkilməsi işləri.

LOT 5 "Bakı Metropoliteni" QSC "Xocasan" Elektrik deposunun ərazisindən keçən 6 KV-luq hava və kabel xətlərinin ərazidən kənara çıxarılması işləri.

LOT 6 "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik deposunun ərazisində "Depo-1" yarımstansiyasında və Avtonəqliyyat kolonun yük maşınlarının sexində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi

**İştirak haqqı -**
**LOT-1 - 100 manat**
**LOT-2 - 150 manat**
**LOT-3 - 200 manat**
**LOT-4 - 100 manat**
**LOT-5 - 100 manat**
**LOT-6 - 100 manat**
**Hesab:** **AZ98AZRT38050019440010268002**
**VÖEN:** **1402871431**
**Bank:** **AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN:** **9900006111**
**M/H:** **AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T:** **AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 dekabr 2018-cı il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 4 dekabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 5 dekabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# İstirahət günlərində yaz havası müşahidə ediləcək




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti istirahət günlərində - oktyabrın 20-21-də səyahətə çıxanlar üçün hava proqnozunu açıqlayıb.

Departamentdən AZƏRTAC-a verilən xəbərə görə, Böyük və Kiçik Qafqaz bölgəsində hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun dağətəyi rayonlarda 19-24°, dağlıq rayonlarda 15-19° dərəcə isti olacağı ehtimalı var.

Lənkəran-Astara bölgəsinə üz tutanları əsasən yağmursuz hava şəraiti gözləyir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 20-25°, dağlıq rayonlarda 15-20° isti olacağı proqnozlaşdırılır. Aran rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Havanın maksimal temperaturunun 22-27° isti olacağı bildirilir.

Naxçıvan Muxtar Respublikasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturu 21-26° isti olacağı ehtimal edilir.

Paytaxtda hava əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək, oktyabrın 20-də arabir güclənəcək. Havanın maksimal temperaturu 20-25° dərəcə isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı aparatın Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdiri Şahin Sadıqova əzizi

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin məsul işçisi Şahin Sadıqova əzizi

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın Fizioterapiya və tibbi bərpa şöbəsinin müdiri Gülnarə İsgəndərovaya atası

**FİKRƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin və Dünya iqtisadiyyatı kafedrasının professor-müəllim heyəti dosent Habil Aslanova əzizi

**RZA KİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanov "Azərtunel" MMC Həmkarlar İttifaqı Komitəsinin sədri Natəvan Hüseynovaya atası

**ƏZİZAĞA HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8408
Sifariş 3050